QARABAĞ AZƏRBAYCANDIR!



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 097 (6297) 4 iyun 2021-ci il Qiymәti 40 qәpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Rəcəb Tayyib Ərdoğan Yeni Azərbaycan Partiyasının nümayəndə heyətini qəbul edib

Türkiyə Prezidenti, hakim Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan Ankarada səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətini partiyasının mərkəzi...




Bax 3



Las2 Orillas

Enviar Noticia

Una estafa para financiar la guerra entre Armenia y Azerbaiyán

"Armenios, tanto los que viven en su país como los que rehacen vidas por el mundo, no se sigan dejando utilizar para llenar arcas de guerreristas y oportunistas"

Por: Roberto Trobajo Hernández

mayo 31, 2021

Este es un espacio de expresión libre e independiente que refleja exclusivamente los puntos de vista de los autores y no compromete el pensamiento ni la opinión de Las2Orillas.

Foto: Pixabay

## Kolumbiya mətbuatı ermәnilәri ifşa edir!

Kolumbiyanın nüfuzlu rəqəmsal mətbu orqanlarından olan “Las2Orillas” və “Ola Politica”...

Bax 5

# Azərbaycan-Çin əlaqələri sağlam təməllər üzərində qurulub



Bax 4

## Aleksey Overçuk: “Azərbaycan daxilində yollar, dəmir yolları möhtəşəm səviyyədədir”

Azərbaycan tərəfi “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizinin ərsəyə gəlməsi üçün çox işlər görüb. Bu barədə Rusiya Baş nazirinin müavini, Rusiya-Azərbaycan hökumətlərarası komissiyasının həmsədri Aleksey Overçuk Sankt-Peterburq İqtisadiyyat Forumu çərçivəsində...



Bax 5

## Avropa İttifaqı Şurasının əməkdaşlıq təklifi mühüm mesajdır



Məlum olduğu kimi, Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin Prezident İlham Əliyevə telefon zəngi edərək bir sıra məsələlər ətrafında fikir mübadiləleri aparması ilk növbədə, postmüharibə dövründə...

Bax 6

# “Formula 1” yarışları yenidən Bakıdan start götürəcək

Bax 7



## Paşinyanın deputatlığa namizədi İran vətəndaşı imiş...

Ermənistan Vətəndaş Razılaşması Partiyasından deputatlığa namizəd göstərilən Tiqran Davudyanın İran vətəndaşı olduğu aşkarlanıb. “İki sahil” “Novosti Armeniya”ya istinadən xəbər verir ki...




Bax 9



## Vüqar Rəhimzadə: “Azərbaycan Avropa İttifaqı və Çinin strateji tərəfdaşıdır”

“Düşünülmüş və məqsədyönlü siyasəti ilə regionda, dünyada mövqeyini möhkəmləndirən, siyasi çəkisini, nüfuzunu artıran Azərbaycanın tarixi Zəfərimizdən sonra beynəlxalq münasibətlər sistemində...

Bax 6

### Ölən erməni əsgərlərinin qalıqları daha harada saxlanılır?



Bax 13

### Ermənilәşən fransızın kapitulyant sevgisi



Bax 15

### Ana və iki uşağı yanaraq öldü



Bax 16

# Prezident İlham Əliyev 110/35/6 kilovoltluq "Binəqədi" yarımstansiyasının açılışını edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Binəqədi rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 110/35/6 kilovoltluq "Binəqədi" yarımstansiyasının açılışında iştirak edib.***

AZƏRTAC xəbər verir ki, "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına yarımstansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 1952-ci ildə inşa edilən "Binəqədi" yarımstansiyası istismar müddətini iki dəfə keçmişdi. Bu isə texnoloji itkilərin çoxalmasına, müxtəlif qəza hallarının, qısaqapanmaların baş verməsinə, istehlakçıların enerji təchizatında fasilələrin yaranmasına səbəb olurdu. İndi bu yarımstansiya müasir avtomatika sistemləri ilə təchiz edilərək tam yenidən qurulub. Burada görülən işlər çərçivəsində yeni avadanlıqla komplektləşdirilmiş, müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri ilə təchiz olunmuş yeni İdarəetmə Mərkəzi tikilib və yerli mikro-SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb.














Qeyd edək ki, "Binəqədi" yarımstansiyasının yenidən qurulması həm də ona görə əhəmiyyətlidir ki, o, paytaxtın Binəqədi, Nərimanov, Nəsimi rayonlarının dayanıqlı elektrik enerjisi təchizatının təmin olunmasında mühüm rol oynayır.

Diqqətə çatdırıldı ki, Abşeron Regional Elektrik Şəbəkəsinin bu ərazidə yerləşən inzibati binası da yenidən qurulub. Şəbəkənin köhnə inzibati binası genişləndirilərək əsaslı təmir olunub, heyətin fasiləsiz iş rejimində çalışması üçün zəruri şərait yaradılıb. Bununla yanaşı, "Azərenerji" ASC-nin xüsusi təyinatlı maşın-mexanizmləri üçün nəqliyyat sahəsi və onlara təmir xidməti göstərəcək sahələr yaradılıb. Müxtəlif relyeflərdə, ağır şəraitdə işləyə biləcək xüsusi təyinatlı maşınlar alınıb. Ərazidə transformatorların təmir sahəsi qurulub, xüsusi layihə əsasında abadlıq işləri görülüb, geniş yaşıllıq sahələri salınıb.




Prezident İlham Əliyev "Binəqədi" yarımstansiyasını işə saldı. Dövlətimizin başçısına işğaldan azad edilən Suqovuşan qəsəbəsində yenidən qurulması tam başa çatan, ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarında görülən işlər barədə də məlumat verildi.

# Rəcəb Tayyib Ərdoğan Yeni Azərbaycan Partiyasının nümayəndə heyətini qəbul edib



Türkiyə Prezidenti, hakim Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan Ankarada səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətini partiyasının mərkəzi qərargahında qəbul edib.

Ədalət və İnkişaf Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələrin inkişafının vacibliyini vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan əminliklə bildirib ki, əməkdaşlığın genişləndirilməsi tərəflər üçün olduqca faydalıdır.

Xatırladaq ki, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinə YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüsüynova, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Milli Məclisin deputatı Ramil Həsən və YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov daxildir.

# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Ankarada TBMM-in vitse-spikeri ilə görüşüb







**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi YAP nümayəndə heyəti iyunun 3-də Ankarada Türkiyə Böyük Millət Məclisinin (TBMM) vitse-spikeri Süreyya Sadi Bilgiç ilə görüşüb.**

Görüşdə Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasındakı əlaqələrin inkişaf dinamikası yüksək qiymətləndirilib, iyunun 2-də bu iki partiya arasında imzalanan əməkdaşlığa dair niyyət protokolundan irəli gələn vəzifələr ətrafında səmərəli fikir mübadiləsi aparılıb. Diqqətə çatdırılıb ki, Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əlaqələr və qarşılıqlı faydalı əməkdaşlıq parlamentlər səviyyəsində, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində uğurla davam etdirilir.

Xatırladaq ki, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinə YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Milli Məclisin deputatı Ramil Həsən və YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov daxildir.




# Türkiyə mətbuatı YAP-AKP birliyindən yazır

**Danılmaz faktdır ki, Azərbaycan-Türkiyə əlaqələri Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanır. Təkcə bu kəlam özündə sübut edir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik iki qardaş ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir.**

Həmin reallıq özünü Azərbaycanın Qarabağın işğaldan azad olunması yönündə başladılan 44 günlük Zəfər yürüşündə də özünü göstərdi - Türkiyə dövləti, onun lideri, Prezident cənab Rəcəb Tayyib Ərdoğan birmənalı olaraq bəyan etdi ki, ölkəsi qardaş Azərbaycanın yanındadır və bundan sonar da həmin siyasət həyata keçiriləcək. O cümlədən, Azərbaycan Prezidenti cənab İlham Əliyev Türkiyənin hər zaman Azərbaycanın yanında olduğu kimi, Azərbaycanın da daim Türkiyənin yanında olduğunu vurğulayaraq bu reallığın əbədi sarsılmaz tellərə bağlı olduğunu bəyan edib.

## Əslində, bu amil digər ölkələr üçün bariz nümunə etalonudur

O da faktıdr ki, Azərbaycan və Türkiyəni bir-birinə bağlayan kifayət qədər çox nəhəng regional layihələr fəaliyyət göstərir və belə bir qarşılıqlı münasibətlərin möhkəmliyi sübut edir ki, ölkələrimiz arasındakı qardaşlıq bağları dünyanın digər başqa ölkələri arasında mövcud deyil. Əslində, bu amil digər ölkələr üçün bariz nümunə etalonudur.

Azərbaycanla Türkiyə arasındakı əməkdaşlıq mühiti hakim partiyalar arasında da möhkəmlənməkdə və inkişaf etdirilməkdədir. Yeni Azərbaycan Partiyası (YAP) ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası (AKP) arasındakı birgə əməkdaşlıq səviyyəsi ən yüksək fəaliyyətləri ilə yadda qalmaqdadır. SİA xəbər verir ki, bugünlərdə YAP-ın nümayəndə heyəti Türkiyəyə səfər edərək, iqtidarda olan AKP rəsmiləri ilə görüşlər keçirib, tərəflər arasında partiyalararası münasibətlərin daha da möhkəmləndirilməsi istiqamətində müzakirələr aparılıb, qərarlar verilib. Bu barədə qardaş ölkənin də bir sıra nüfuzlu media qurumları məlumat veriblər.

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri barədə qardaş ölkənin Anadolu agentliyi, "Hürriyət", "Sabah", "Milliyət", "Yeni şəfəq" və digər aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

## YAP Sədrinin müavini Tahir Budaqovun və AKP Sədrinin birinci müavini Numan Kurtulmuşun birgə mətbuat konfransında səsləndirdikləri fikirləri işıqlandırılıb

Məqalə və materiallarda Tahir Budaqovun AKP Sədrinin birinci müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Numan Kurtulmuş, hakim partiyanın beynəlxalq məsələlər üzrə müavini Əfkan Ala, eləcə də AKP-nin Sədr müavini, Türkiyə Respublikasının sabiq Baş naziri Binəli Yıldırım ilə görüşləri, o cümlədən, iki qardaş ölkənin hakim siyasi partiyaları arasında əməkdaşlığa dair niyyət protokolunun imzalanması əksini tapıb.

Mediada əməkdaşlığa dair niyyət protokolunun imzalanması mərasimindən sonra YAP Sədrinin müavini Tahir Budaqovun və AKP Sədrinin birinci müavini Numan Kurtulmuşun birgə mətbuat konfransında səsləndirdikləri fikirlər də işıqlandırılıb. Onlar qarşılıqlı münasibətlərin daha da gücləndirilməsi istiqamətində birgə əməkdaşlıq məsələlərinin davamlı xarakter daşıması zəruriliyini qeyd edərək qardaş ölkələrin dünyaya örnək olduğunu vurğulayıblar.

***Rövşən RƏSULOV***

# Azərbaycan-Çin əlaqələri sağlam təməllər üzərində qurulub

**Çinlə Azərbaycan arasında əlaqələrin qədim tarixi var. Qədim İpək Yolunun Çindən başlayaraq Hindistan, Tacikistan, Özbəkistan, İran və Azərbaycana, buradan isə Avropanın günbatan hissəsinə qədər uzanması ölkələrimiz arasında əlaqələri başqa istiqamətlərdə də inkişaf etdirmişdir.**

Hazırda Çin və Azərbaycan respublikaları arasında möhkəm diplomatik və mədəni əlaqələr mövcuddur. Çin dünyanın ən böyük dövlətlərindəndir. Dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq yaratmaq prinsiplərini rəhbər tutan Azərbaycan Respublikası Çinlə də bütün istiqamətlərdə sıx əlaqələrə malikdir.



**Tarix...**



Ötən əsrin 90-cı illərində Müstəqil Azərbaycan Respublikası yarandıqdan sonra onun müstəqilliyini tanıyan ilk ölkələrdən biri də Çin Xalq Respublikası olub. Bu əlamətdar hadisə 1991-ci il dekabrın 27-nə təsadüf edir. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il aprelin 2-də qurulub. 1992-ci ilin avqust ayında ÇXR-in Azərbaycan Respublikasında səfirliyi açılıb, 1993-cü ilin dekabr ayının 1-də isə ilk səfir təyin edilib. 1993-cü il 3 sentyabrda Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə ölkəmizin Çin Xalq Respublikasında səfirliyinin açılması qərarlaşdırılıb.

İki ölkə arasında rəsmi şəxslərinin qarşılıqlı səfərləri diplomatik əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edib. 1994-cü il 7-10 mart tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Çin Xalq Respublikasında rəsmi səfərdə olub. Ulu Öndər Çin Xalq Respublikasının sədri Tszyan Tszemin, baş naziri Li Pen ilə rəsmi görüşlər keçirib. Səfər zamanı iki dövlət arasında 8 müqavilə imzalanıb. ÇXR sədri Tszyan Tszemin Azərbaycan Prezidenti Heydər Əliyevlə danışıqlarda bildirib: "Çin Azərbaycanla münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət verir və bütün sahələrdə dostcasına əməkdaşlığın daha da genişləndirilməsi üçün onunla birlikdə səy göstərməyə hazırdır".

Elə həmin gün Tszyan Tszemin və Heydər Əliyev ÇXR ilə Azərbaycan arasında dostluq münasibətlərinin inkişaf etdirilməsinin əsasları haqqında birgə bəyanat imzalayıblar. İki ölkə arasında hava yolunun açılması haqqında, elmi-texniki və mədəni əməkdaşlıq, təbabət, radio və televiziya, turizm sahəsində qarşılıqlı fəaliyyət haqqında sazişlər də bağlanıb.

Heydər Əliyevin ÇXR Dövlət Şurasının baş naziri Li Penlə görüşündə ikitərəfli münasibətlərin müxtəlif cəhətlərinə, habelə Azərbaycanda və bütövlükdə bölgədə vəziyyətlə bağlı məsələlərə toxunulub.

1996-cı il 17-18 aprel tarixində Çin Xalq Respublikası Baş nazirinin müavini Tsyan Tsiçen Azərbaycanda səfərdə olub. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Tsyan Tsiçeni qəbul edərkən ikitərəfli münasibətlərlə yanaşı, əsas müzakirə mövzularından biri də Azərbaycanın dövlət suverenliyi və torpaqlarının işğalı olub. Tsyan Tsiçen ÇXR-in Azərbaycan Respublikasının torpaqlarının toxunulmazlığını tanıdığını və Azərbaycanın yanında olduqlarını bir daha bəyan edib.

1998-ci il sentyabrın 8-də Bakıda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə tarixi Böyük ipək yolunun bərpası üzrə TRASEKA proqramı çərçivəsində Avropa və Asiya dövlət başçılarının zirvə görüşünə həsr olunmuş beynəlxalq konfrans keçirilib. Bu konfrans da öz növbəsində iki ölkə arasında münasibətlərin daha da istiləşməsinə səbəb olub.

Azərbaycan Prezidenti İlham Əliyev də CXR-lə münasibətlərin inkişaf etdirilməsinə daim diqqətlə yanaşıb. 2005-ci il martın 17-19-da Azərbaycan Prezidenti Çin Xalq Respublikasında rəsmi səfərdə olub. ÇXR-in sədri Xu Szintao Azərbaycan Prezidentinin səfərini iki ölkə arasında münasibətlərin tarixində çox mühüm hadisə kimi qiymətləndirib. O, həmçinin, Azərbaycanın Cənubi Qafqazda liderlik mövqeyinin möhkəmlənməsindən məmnun olduğunu bildirib. Öz növbəsində İlham Əliyev Azərbaycanın Çinlə əlaqələrə xüsusi önəm verdiyini vurğulayaraq, Azərbaycan rəhbərliyinin Çinin işgüzar



dairələrinin ölkə iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymasına köməklik göstərəcəyini deyib.

Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə rəsmi səfəri zamanı "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu" imzalanıb. Bu barədə 2019-cu ilin aprelində Çinin "Sinxua" agentliyinə müsahibəsində Prezident İlham Əliyev belə deyib: "Mənim 2015-ci ildə Çinə səfərim zamanı bir çox mühüm sənədlər imzalanmışdır. Bunların sırasında iki ölkə arasında imzalanmış "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu da var idi. Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü tam dəstəkləyir. Azərbaycan və Çin arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün çox yaxşı perspektivlər var".

**İqtisadi əlaqələr...**

2019-cu il aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çinə səfərə edib və ayın 26-27-də Çinin paytaxtı Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edib.

Qeyd edək ki, "Bir kəmər, bir yol" layihəsi Çin iqtisadiyyatının əsasını təşkil edir. Bu layihəyə altı istiqamət daxildir. Birinci istiqamət Çin, Monqolustan, Rusiya və Skandinaviya ölkələri, ikinci istiqamət Çin, Qazaxıstan, Rusiya, Belarus və Mərkəzi Avropa ölkələri, üçüncü istiqamət Çin, Mərkəzi Asiya ölkələri,



Azərbaycan, Gürcüstan, Türkiyə və Cənubi Avropa ölkələri, dördüncü istiqamət Çin, Pakistanın Karaçidəniz limanı, beşinci istiqamət Çin, Myanma və Hindistan, altıncı istiqamət Çin, Tailand, Malayziya, Sinqapur və dəniz yolu ilə Afrika və Latın Amerikası ölkələri. Azərbaycanın "Bir kəmər, bir yol" layihəsinə verdiyi önəm 2017-ci ilin oktyabrında "Bakı-Tbilisi-Qars" dəmir yolunun açılışı ilə öz təsdiqini tapdı. Çin hökuməti "Bakı-Tbilisi-Qars" dəmir yolunun istifadəyə verilməsini, bu yolun tikintisində Azərbaycanın rolunu, eləcə də "Bir kəmər, bir yol" layihəsinə verdiyi dəstəyi yüksək qiymətləndirdi.

Azərbaycan ilə Çin arasında iqtisadi əlaqələrin genişləndirilməsi, bu sahədəki problemlərin həlli məqsədilə Hökumətlərarası İqtisadi Komissiya yaradılıb. Prezident İlham Əliyevin 2019-cu ilin aprelində Çinə səfəri zamanı iki ölkə şirkətləri arasında ümumi dəyəri 821 milyon ABŞ dolları olan 10 sənəd imzalanıb. İlham Əliyevin Si Cinpinlə görüşündə Çin rəhbərinin: "Cənab Prezident, Siz Çin xalqının çoxdankı dostusunuz, Çin-Azərbaycan münasibətlərinin və bütün sahələrdə əməkdaşlığın inkişafı üçün şəxsən daim səy göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və Sizinlə sıx əlaqə saxlamağa, ikitərəfli münasibətləri birlikdə sağlam məcrada inkişaf etdirməyə hazıram", fikri Azərbaycan Prezidentinin şəxsiyyətinə, qlobal siyasətdə yerinə və roluna verilən önəmli qiymət, dövlət başçımıza olan inam və etimadın təzahürü kimi qəbul edilməlidir.

Dövlətimizin başçısı isə çıxışında Azərbaycanın sənaye istehsalında, texnoparkların yaradılmasında, informasiya-kommunikasiya texnologiyaları sahəsində Çin şirkətləri ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu qeyd edib. Prezident İlham Əliyev Çin Xalq Respublikasının sədri Si Cinpinin irəli sürdüyü qədim İpək Yolu üzrə iqtisadi zolağın yaradılması təşəbbüsünün Azərbaycan tərəfindən dəstəkləndiyini diqqətə çatdırıb. Dövlətimizin başçısı Azərbaycanın da qədim İpək Yolu üzərində yerləşdiyini deyib, Çin mallarının ölkəmizdən Türkiyəyə, oradan da Avropaya çıxarılmasında respublikamızın əlverişli coğrafi mövqeyə, infrastruktur imkanlarına malik olduğunu bildirib. Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycandan keçəcək yol Çin mallarının Avropaya çatdırıla biləcəyi ən qısa yol ola bilər: "Bu sahədə Azərbaycan öz töhfəsini verməyə hazırdır. Azərbaycan həm Şərq-Qərb, həm də Şimal-Cənub tranzit dəhlizi layihələrində mühüm rol oynaya bilər və artıq bu sahədə konkret addımlar atır".

Çin Xalq Respublikasının sədri Si Cinpin bildirib ki, Çin ilə Azərbaycan hüquq bərabərliyi, qarşılıqlı fayda və qarşılıqlı hörmət ruhunda ikitərəfli əlaqələri inkişaf etdirir, həyati əhəmiyyətli və ciddi narahatlıq doğuran məsələlərdə bir-birini qətiyyətlə dəstəkləyirlər: "Siyasi sahədə qarşılıqlı etimad daim möhkəmlənir, çoxplanlı əməkdaşlıq fasiləsiz olaraq dərinləşir. Ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətləri üçün möhkəm təməl və geniş perspektivlər var".

Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsində müsbət dinamika mövcuddur. 2019-cu ilin birinci yarısında iki ölkə arasında ticarət dövriyyəsi 2.3 dəfə artaraq 1.4 milyard ABŞ dollarından çox olub. Halbuki, 1992-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi olduqca az - 1,5 milyon ABŞ dolları təşkil edirdi. Sonradan bu göstərici 2003-cü ildə 111,7 milyon dollar, 2016-cı ildə 770 milyona çatıb, 2018-ci ildə isə iki ölkə arasında ticarət dövriyyəsi 1,3 milyard ABŞ dollarından çox olub, bu isə Çinin Cənubi Qafqaz ölkələri ilə olan ümumi ticarət dövriyyəsinin 43%-ni təşkil edir.

Azərbaycan Çinin Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. Azərbaycan Çinlə sənaye, kənd təsərrüfatı, ticarət, turizm, İKT, nəqliyyat-logistika, tikinti və digər sahələrdə əməkdaşlıq edir.

Azərbaycan Respublikasının "Bir kəmər, bir yol" strategiyası üçün vacib ölkə olduğunu Çin rəsmiləri hər zaman qeyd edir. Ölkəmizin Çində ticarət nümayəndəliyi fəaliyyət göstərir. Bununla yanaşı, Urumçi, Luco və Şanxayda Azərbaycanın Ticarət evləri açılıb. Azərbaycan Çinin müxtəlif bölgələrinə ticarət missiyaları təşkil edir. Çin şirkətləri Azərbaycanda sənaye layihələrinin reallaşdırılmasında iştirak edirlər. Çinin İKT şirkətləri də ölkəmizdə uğurla fəaliyyət göstərirlər. Azərbaycanda 120-dək Çin kapitallı şirkət qeydiyyata alınıb. Ölkəmizdə dövlət vəsaiti hesabına icra edilən 600 milyon ABŞ dolları dəyərində layihələrdə Çin şirkətləri iştirak edib. Çin Azərbaycan iqtisadiyyatına 800 milyon dollar, Azərbaycan isə Çinə 1.7 milyard dollar sərmayə yatırıb.

TANAP qaz layihəsinin maliyyələşdirilməsinə Çin 600 milyon dollar kredit ayırıb. Azərbaycanda 120-yə yaxın Çin sərmayəli şirkət fəaliyyət göstərir. Çin tərəfindən irəli sürülən məşhur "Bir kəmər - bir yol" qlobal nəqliyyat dəhlizi layihəsini ilk dəstəkləyən ölkələrdən biri Azərbaycan olub. Cənab Prezidentin 2015-ci ildə Çinə rəsmi səfəri zamanı "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb. Azərbaycanın müəllifi olduğu Bakı-Tbilisi-Qars və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "İpək Yolu İqtisadi Kəməri"nin tərkib hissəsi kimi mühüm yer tutur və ölkəmiz bu nəqliyyat marşrutları ilə malların Çindən Avropaya, Avropadan isə Çinə gətirilməsi üçün ən qısa yoldur.

Prezident İlham Əliyevin iyunun 2-də Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında telefon söhbəti zamanı müzakirə edilən mühüm məsələlər faydalı əməkdaşlığını daha da genişləndirir. Çin-Azərbaycan münasibətləri həqiqi səmimi dostluq və yaxın tərəfdaşlığa əsaslanır. COVID-19 pandemiyası dövründə hər iki ölkə güclü iradə nümayiş etdirərək, bu qlobal bəlaya qarşı mübarizədə həmrəylik nümayiş etdirdi, bir-birini dəstəklədi, Çin əldə etdiyi peyvəndi ilk ölkələrdən biri kimi Azərbaycana təqdim etdi. Hazırda hər iki ölkə "Bir kəmər bir yol" layihəsinin inkişafı çərçivəsində fəaliyyətlərin daha da genişləndirilməsi təşəbbüsünü artırır.

**V.VƏLİYEV**

# Prezident İlham Əliyevin Sədr Si Cinpinlə telefon danışığı Çin mediasının diqqət mərkəzindədir

**Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə iyunun 2-də baş tutan telefon danışığı Çinin kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olub. AZƏRTAC xəbər verir ki, ölkənin milli xəbər agentliyi olan Sinxua, rəsmi "Jenmin Jibao" qəzeti, Çin Mərkəzi Televiziyası, nüfuzlu "China Daily" qəzeti və digər xəbər saytları bununla bağlı materiallar yayıblar.**

"Si Cinpin: Azərbaycan "Bir kəmər, bir yol"un vacib tərəfdaşıdır", "Si Çin-Azərbaycan münasibətlərinin daha da inkişafına çağırır" sərlövhəli məqalələrdə dövlət başçılarının iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə inkişafı ilə bağlı fikir mübadiləsi apardıqları, əlaqələrin daha da inkişafına tərəfdar olduqları bildirilib.

Qeyd olunub ki, telefon danışığı zamanı Sədr Si Cinpin hər iki ölkənin ənənəvi dostluğu inkişaf etdirdiyini, əməkdaşlığı dərinləşdirdiyini və qarşılıqlı dəstəyi artırdığını bildirib. Bundan başqa, Sədr Si Cinpin Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsünün reallaşdırılması istiqamətində vacib tərəfdaş olduğunu və Çinin Azərbaycan xalqının seçdiyi inkişaf yolunu dəstəklədiyini vurğulayıb.

Xəbərlərdə vurğulanır ki, tərəflər gələn il iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyinin qeyd olunacağını və bu əlamətdar hadisənin iki ölkə arasında əlaqələrin daha da inkişafına imkan yaradacağını bildiriblər.













Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə ÇXR Sədri Si Cinpini təbrik edib, pandemiya ilə mübarizədə dəstəyə görə Çin tərəfinə təşəkkürünü bildirib. Dövlətimizin başçısının Azərbaycan və Çinin siyasi, iqtisadi, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlıq etməsi barədə fikrinə toxunan Çin mediası yazır ki, Prezident İlham Əliyev Çin şirkətlərinin ölkəmizdə fəaliyyətinin daha da genişləndirilməsini alqışladığını bildirib. Bundan başqa, Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci ildə keçiriləcək Pekin Qış Olimpiya və Paralimpiya Oyunlarının təşkilində Çin Xalq Respublikasına müvəffəqiyyətlər arzuladığı vurğulanıb.

# Kolumbiya mətbuatı erməniləri ifşa edir!

**Kolumbiyanın nüfuzlu rəqəmsal mətbu orqanlarından olan "Las2Orillas" və "Ola Politica" qəzetlərində xarici ölkələrdəki erməni icma təşkilatları tərəfindən Azərbaycan ərazilərində mövcud olmuş qanunsuz rejimə və erməni silahlı birləşmələrinə yardım məqsədilə iri həcmli maliyyə ianələri toplanması haqda tanınmış jurnalist Roberto Trobaxonun müəllifi olduğu "Müharibəni maliyyələşdirmək məqsədilə dələduzluq" başlıqlı məqalə dərc olunub.**

SİA xəbər verir ki, yazıda Ermənistan hökuməti və erməni icma təşkilatlarının dünyanın müxtəlif ölkələrində yaşayan ermənilərdən humanitar məqsədlər adı altında kütləvi həcmdə maliyyə ianələri topladığı və bu vəsaitləri Ermənistanın silahlanmasına və 44 günlük müharibə zamanı Azərbaycana qarşı hərbi əməliyyatlara qatılan muzdlulara sərf olunduğu məlumat verilir.

Müəllif bildirir ki, Ermənistan tərəfinin təxribatları nəticəsində başlanmış və Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi ilə nəticələnmiş 44 günlük müharibə başa çatanadək "Hayastan All Armenian




Fund" tərəfindən aparılan ianə toplama kampaniyası çərçivəsində 73 müxtəlif ölkədə yaşayan çoxsaylı icma üzvlərindən 170 milyon ABŞ dolları məbləğində vəsait toplanıb.

Məqalədə xaricdə yaşayan ermənilərin etibarından sui-istifadə edilərək toplanmış həmin vəsaitin böyük hissəsinin müharibə dövründə gizli şəkildə Ermənistanın dövlət büdcəsinə köçürüldüyü və bu faktın Ermənistanın Azərbaycana qarşı apardığı müharibənin maliyyə xərclərini xaricdə yaşayan soydaşlarından dələduzluq və aldatma yolu ilə topladığı vəsait hesabına qarşıladığına dəlalət etdiyi qeyd olunur.

Ardınca sözügedən fondun daha əvvəllər də qanunsuz mənimsəmə hallarında adı keçdiyi, bu xüsusda qurumun keçmiş direktoru Ara Vardanyan 2018-ci ildə fondun böyük həcmli vəsaitlərini mərc oyunlarına sərf etdiyinə görə həbs olunduğu məlumat verilir. Sonda sözügedən ianə toplama kampaniyasına dəstək olan bəzi iri beynəlxalq bankların adları çəkilərək həmin maliyyə qurumlarına erməni diaspor təşkilatlarına aid hesabların təhlil edilməsi tövsiyə olunur.



## Aleksey Overçuk: "Azərbaycan daxilində yollar, dəmir yolları möhtəşəm səviyyədədir"

Azərbaycan tərəfi "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin ərsəyə gəlməsi üçün çox işlər görüb. Bu barədə Rusiya Baş nazirinin müavini, Rusiya-Azərbaycan hökumətlərarası komissiyasının həmsədri Aleksey Overçuk Sankt-Peterburq İqtisadiyyat Forumu çərçivəsində keçirilən "Postcovid dövründə Avrasiya regional əməkdaşlığı" adlı panel müzakirədə çıxış zamanı bildirib.

"Azərbaycan daxilində yollar, dəmir yolları möhtəşəm səviyyədədir. Bir sözlə, nəqliyyat yollarını Azərbaycan inkişaf etdirib. Bunu Azərbaycanda olan hər kəs bilir. Təkcə dəmir və avtomobil yolları deyil, Azərbaycan Xəzər dənizində olan limanını da inkişaf etdirib. Bütün bunlar "Şimal-Cənub" dəhlizinin tərkib hissəsidir", - deyə Rusiya Baş nazirinin müavini vurğulayıb.

# Avropa İttifaqı Şurasının əməkdaşlıq təklifi mühüm mesajdır

*Bu isə həm də o deməkdir ki, Azərbaycanın mövqeyi ilə bu gün tam şəkildə hesablaşılır*

**Məlum olduğu kimi, Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin Prezident İlham Əliyevə telefon zəngi edərək bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparması ilk növbədə, postmüharibə dövründə Azərbaycanın beynəlxalq arenadakı rolunun güclənməsi reallığını isbat edir.**

Xüsusilə, müzakirə zamanı Şarl Mişelin ölkəmizlə əməkdaşlıq perspektivlərini dəyərləndirməsi, eləcə də digər mühüm layihələr ətrafında rəhbərlik etdiyi qurumun maraqlarının olduğunu bildirməsi də belə qənaətə gəlməyə zəmin yaradır ki, zamanında Azərbaycana qarşı qərəzli, yaxud ikili standartlardan yanaşan beynəlxalq qurumlar da istiqamətlərini dəyişməli, əməkdaşlıq imkanlarını müsbət məcrada inkişaf etdirməlidirlər.

### Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı digər Avropa təşkilatlarına nümunədir

Məhz bu kontekstdən yanaşma edərək həm də nəticəyə gələ bilərik ki, Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı digər Avropa təşkilatlarına nümunədir. Başqa tərəfdən, fakt budur ki, Azərbaycan artıq uzun müddətdir ki, nəinki regionun, eyni zamanda Avropa məkanının enerji təhlükəsizliyinin təminatında söz sahibi qismində çıxış edir. Bu xüsusda Şarl Mişelin Cənub Qaz Dəhlizi layihəsinin başa çatması ilə bağlı məmnuniyyət ifadə etməsini göstərə bilərik. Eləcə də qarşıda daha münbit və nəhəng layihələrin icrasının da Avropa İttifaqının gündəmində dayandığını qeyd edərsək, bu imkanların istər Cənubi Qafqaza, istərsə də Avropa məkanına yeni nəfəs verəcəyini proqnozlaşdıra bilərik.



### Azərbaycan qarşısında olan bütün öhdəliklərə zamanında, heç bir maneələr törətmədən əməl edir və bunu beynəlxalq siyasi dairələr də yaxşı bilir və anlayırlar

Lakin sirr deyil ki, müharibədən sonra Ermənistanın Azərbaycandan fərqli olaraq sülhə hazır olmadığını nümayiş etdirməsi qarşıda dayanan mühüm məsələlərin həllinə mənfi təsirlərini göstərir. Daha dəqiq desək, Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatdan sonra regionda təhlükəsizlik və sabitliyin təmin olunması məsələləri bu gün də gündəmin prioritet istiqaməti olaraq qalmaqdadır. Bu baxımdan, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Avropa İttifaqının Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin, iki ölkə arasında etimad quruculuğu tədbirlərinin başlanmasına dəstək verməyə hazır olması mesajını göstərə bilərik. Belə ki, Şarl Mişel hər iki tərəfi saxlanılan şəxslər, tam şəffaflıq şəraitində mina və digər humanitar məsələlər üzrə əməkdaşlıq etməyə çağırsa da, əslində, həmin mesajın Ermənistana ötürüldüyünü də ayrıd etmək çətinlik yaratmır. Çünki Azərbaycan qarşısında olan bütün öhdəliklərə zamanında, heç bir maneələr törətmədən əməl edir və bunu beynəlxalq siyasi dairələrdə də yaxşı bilir və anlayırlar, əlbəttə ki, qərəzli dairələrdən fərqli olaraq. O cümlədən, Avropa İttifaqı Şurası da sözügedən gerçəkliyi dərk edir.

### Cənubi Qafqazda sülhün bərqərar olması üçün beynəlxalq birlikdə yekdil rəy formalaşır

Yeri gəlmişkən, telefon danışığı əsnasında Prezident İlham Əliyev də Azərbaycanın Ermənistanla sülh sazişinin imzalanması üçün danışıqlara başlamağa hazır olduğunu vurğulayıb, lakin Ermənistanın hələ də bu çağırışa cavab vermədiyini bildirib. Ümumiyyətlə, telefon söhbəti zamanı hər iki tərəf Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin edilməsində maraqlı olduqlarını bildirməklə yanaşı, Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramının əhəmiyyəti barədə də ümumi razılığa gəliblər və bu xüsusda qarşıdakı sammit ilə bağlı fikir mübadiləsi aparıblar. Bütövlükdə isə, sözügedən proseslər, cərəyan edən olaylar həm də onu göstərir ki, Cənubi Qafqazda sülhün bərqərar olması üçün beynəlxalq birlikdə yekdil rəy formalaşır. Bu isə həm də o deməkdir ki, Azərbaycanın mövqeyi ilə bu gün tam şəkildə hesablaşılır.

**Rövşən RƏSULOV**

---

## “YAP-la AK Parti arasında əlaqələr getdikcə güclənməkdədir”

“Bu gün Türkiyədə Ədalət və İnkişaf Partiyası Azərbaycanda isə Yeni Azərbaycan Partiyası hakim partiyadır. Həm partiyaların bir-birinə münasibətləri, həm də partiya sədrlərinin bir-birlərinə münasibətləri dostluq münasibətlərini də aşaraq qardaşlıq münasibəti səviyyəsindədir”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin üzvü Anar İsgəndərov deyib. Onun sözlərinə görə, dünyada həmişə dövlətlərin bir-birinə məhəbbəti yox, marağı olur: “Amma Azərbaycanla Türkiyə siyasətdə işlənən bu ifadədən imtina edərək iki dövlət arasında münasibətləri qardaşlıq səviyyəsinə qaldıra biliblər. Təbii ki, Azərbaycan tərəfindən bu siyasətin bünövrəsini Ümummilli Lider Heydər Əliyev “Bir millət, iki dövlət” şüarını irəli sürməklə qoyub. Hazırda bu siyasət Türkiyədən Rəcəp Tayyib Ərdoğan Azərbaycandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təqribən mart ayının sonlarında Ədalət və İnkişaf partiyası ilə Yeni Azərbaycan partiyası arasında onlayn qaydada çox maraqlı bir konfrans keçirildi. Bu tədbirdə çox maraqlı məruzələr oldu”.




A.İsgəndərov vurğulayıb ki, tarixin bütün məqamlarında bu iki dövlət xalq olaraq bir-birinin yanında olub: “Bütün dövrlərdə olduğu kimi 44 günlük Vətən müharibəsi dövründə də Türkiyənin bizim yanımızda olduğunu gördük və qürur duyduq. Bu gün də Azərbaycanın hansı bölgəsinə getsəniz üçrəngi bayrağımızla yanaşı Türkiyənin bayrağının da dalğalandığını görəcəksiniz. Xalq birmənalı olaraq Türkiyənin Azərbaycan, Azərbaycanın Türkiyə üçün hansı mövqeyə malik olduğunu çox yaxşı bilir. İki partiya arasında olan münasibət iki dövlət arasında olan münasibətin daha da güclənməsinə, qardaşlıq münasibətlərinin ali səviyyəyə qalxması üçün görülən tədbirlərdir. Hər iki dövlət regionda sülh və əmin-amanlıq üçün əllərindən gələni edirlər”.

**Aysel Məmmədova**

---

# Vüqar Rəhimzadə: “Azərbaycan Avropa İttifaqı və Çinin strateji tərəfdaşıdır”



“Düşünülmüş və məqsədyönlü siyasəti ilə regionda, dünyada mövqeyini möhkəmləndirən, siyasi çəkisini, nüfuzunu artıran Azərbaycanın tarixi Zəfərimizdən sonra beynəlxalq münasibətlər sistemində roluna yeni əlavələr edilməkdədir. Bunu təkcə iyunun 2-də Azərbaycan Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında telefon söhbətində ifadə olunmuş fikirlər bir daha təsdiq edir. Eyni gündə iki qlobal güc mərkəzinin Azərbaycan Prezidenti ilə telefon söhbəti ölkəmizin regionda liderliyinə və qlobal siyasətdə əhəmiyyətinə verilən qiymətin təzahürü kimi dəyərləndirilir. Eyni zamanda, Azərbaycanın 500 milyard dollar həcmində ticarət dövriyyəsi olan Çinlə Avropa İttifaqı arasında mühüm nəqliyyat-loqistika mərkəzinə çevrilməsi ölkəmiz və iki qlobal güc arasında əlaqələrin inkişafı üçün böyük əhəmiyyətə malikdir. Xüsusi vurğulamaq lazımdır ki, Çinlə əlaqələrimizin yüksələn xətlə inkişafı xarici siyasətimizin əsasında dayanan prinsiplərin dəyişməz olmasından, dövlətimizin gələcəyə hesablanmış siyasətinin uğurlarından irəli gəlir.”

Bu fikirləri “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən, yeni dünya düzənində aparıcı qüvvələrdən biri kimi Çin Xalq Respublikası ilə Azərbaycan arasında əlaqələrin inkişafında yeni mərhələnin təməli qoyulur: “2022-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi qeyd ediləcəkdir. Ümummilli lider Heydər Əliyevin 1994-cü ildə Çin Xalq Respublikasına rəsmi səfəri ilə ölkələrimiz arasında əsası qoyulmuş yüksək səviyyəli siyasi dialoqun cənab İlham Əliyevin uğurla davam etdirməsi Azərbaycan-Çin əlaqələrinin dostluq və qarşılıqlı etimada, yüksək inkişaf dinamikası ilə seçilən çoxşaxəli ciddi tərəfdaşlıq münasibətlərinə əsaslandığını təsdiqləyir. Azərbaycan Çinin 2013-cü ildə irəli sürdüyü “Bir kəmər, bir yol” layihəsini ilk dəstəkləyən dövlətlərdən olmaqla bunu əməli fəaliyyəti ilə sübut etdi. Məsələyə bu kontekstdən yanaşdıqda deyə bilərik ki, dövlətimizin başçısı İlham Əliyevin 2019-cu ildə “Bir kəmər, bir yol” Beynəlxalq Forumunda iştirak etməsi əlaqələrin inkişafına böyük töhfə oldu. Xüsusilə təqdirəlayiq haldır ki, Azərbaycan və Çin beynəlxalq platformalarda bir-birinin milli maraqları üçün müstəsna əhəmiyyət kəsb edən məsələlərdə qarşılıqlı dəstək nümayiş etdirirlər. Azərbaycan Çinin “Vahid Çin” siyasətini, Çin isə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını dəstəkləyir.”

Baş redaktor bildirib ki, ölkəmiz müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla təkcə mühüm nəqliyyat mərkəzinə çevrilmədi, həmçinin Şərq-Qərb və Şimal-Cənub dəhlizləri layihələrində iştirak edən ölkələr arasında əməkdaşlığa töhfələr verməkdə davam edir: “Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. “Bir kəmər, bir yol” təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir. Dövlətimizin başçısı İlham Əliyevin “Bir kəmər, bir yol” Beynəlxalq Forumunda iştirak etməyə dəvət olunması ölkəmizə xüsusi diqqətin, xalqlarımızın dostluğunun təsdiqi kimi dəyərləndirilərək qeyd edilir ki, birgə səylər əsasında əməkdaşlığımız irəliləyir, bundan sonrakı qarşılıqlı fəaliyyətin yolları müəyyənləşdirilir.”

V.Rəhimzadə Çin şirkətlərinin Azərbaycana investisiya marağından da bəhs edərək bildirib ki, bu, güclü iqtisadi inkişafa, əlverişli investisiya mühitinə malik olan Azərbaycana marağın ifadəsidir: “Ölkəmizdə sabitliyin və normal biznes mühitinin mövcudluğu investisiya axınını sürətləndirir. Azərbaycanda Çin şirkətlərinin fəaliyyəti, “Huawey” şirkətinin işğaldan azad olunmuş ərazilərdə mühüm layihələr icra etməsi təqdirəlayiq addımdır.”

Baş redaktor COVID-19 pandemiyası dövründə Çinin Azərbaycana dəstəyini, dünyada vaksin çatışmazlığı şəraitində Azərbaycanın Çindən vaksin idxal etməsini və ilk ölkələr sırasında vaksinasiya həyata keçirməyə başlamasını, çinli mütəxəssislərin Azərbaycana gəlməsini və pandemiya ilə mübarizəyə dəstək göstərmələrini də xüsusi vurğulayıb.

V.Rəhimzadə, həmçinin diqqəti Azərbaycan-Avropa İttifaqı əlaqələrinə yönəldərək bildirib ki, qlobal güc mərkəzi olan Avropa İttifaqı Azərbaycanın ən vacib tərəfdaşlarından biridir. Avropa İttifaqına üzv dövlətlərin üçdəbir hissəsi ilə Azərbaycan Strateji Tərəfdaşlıq sənədi və bəyannamələr imzalayıb.

“Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel ilə dövlətimizin başçısı İlham Əliyev arasında telefon söhbətində Azərbaycanın istər dünyanın enerji təhlükəsizliyinin təmin olunmasında, istərsə də regionda və dünyada sülhün, əmin-amanlığın möhkəmləndirilməsində rolunun yüksək dəyərləndirilməsi ölkəmizə verilən önəmin, artan nüfuzunun təsdiqidir” söyləyən V.Rəhimzadə bu ümumiləşdirməni edib ki, iki nəhəng beynəlxalq güc mərkəzi ilə eyni günə təsadüf edən belə yüksək dəyərləndirməni özündə əks etdirən təmaslar Cənubi Qafqaz-Avropa İttifaqı və Cənubi Qafqaz-Çin əməkdaşlıq modelləri ətrafında müzakirələrin aparılmasını aktuallaşdırır. Möhtərəm Prezidentimiz İlham Əliyevin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin “Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri” adlı videoformatda keçirdiyi müzakirələrdə qeyd etdiyi kimi, Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır. Vaxt gələcək sözün əsl mənasında, Cənubi Qafqazda belə bir fəal əməkdaşlıqdan və inteqrasiyadan danışacağıq.

# "Formula 1" yarışları yenidən Bakıdan start götürəcək



## Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir

**Sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verən Azərbaycan qitə və dünya miqyaslı tədbirlərə ev sahibliyi edən ölkə olaraq da tanınıb. Müxtəlif məzmunlu tədbirlərin keçirilməsi ölkəmizin sabitlik, əmin-amanlığın hökm sürdüyü diyar olduğunu təsdiqləmiş oldu. İqtisadi inkişafımız da, məhz belə tədbirlərin Azərbaycanda keçirilməsinə geniş imkanlar açıb.**

Ölkəmizdə kifayət qədər idman yarışları da keçirilib ki, bu da dünyanın idman nəbzinin Bakıda - Şərq ilə Qərbin koloritinin cəmləşdiyi şəhərdə döyünməsinə səbəb olub. Azərbaycanda idmanın əksər növləri üzrə mötəbər yarışlar keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə bütün sahələrə olduğu kimi, idmanın inkişafına da xüsusi diqqət və qayğı göstərməsi nəticəsində ölkəmiz son illərdə idmanın inkişafı istiqamətində mühüm uğurlar qazanıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın hər bir bölgəsində idman arenalarının, müasir komplekslərin tikilərək yeniyetmələrin, gənclərin ixtiyarına verilməsi ölkəmizdə böyük idmançı ordusunun formalaşmasını şərtləndirib, idmanın kütləviliyi təmin edilib. İdmanın inkişaf etdirilməsi istiqamətində görülən genişmiqyaslı işlər nəticəsində Azərbaycan Avropanın idman mərkəzlərindən birinə çevrilib. Azərbaycan idmançılarının mötəbər beynəlxalq yarışlarda, olimpiadalarda çıxışları da getdikcə daha uğurlu olur. Vurğulamaq yerinə düşər ki, beynəlxalq tədbirlərin, eləcə də, idman yarışlarının təşkilində böyük təcrübəyə malik olan Azərbaycan dünya idmanının tarixində ilk dəfə keçirilən Avropa Oyunlarına ev sahibliyi edərək bu oyunların standartlarını və səviyyəsini təmin edə bildi. Dünyanın 50 ölkəsinin 6 min idmançısının iştirak etdiyi I Avropa Oyunlarında Azərbaycan təmsilçilərinin 21 qızıl medal qazanması və 21 dəfə Azərbaycan bayrağının yüksəldilməsi, Dövlət Himnini səsləndirilməsi idmana olan qayğının göstəricisi idi. Daha sonra dünyanın ən məşhur avtomobil yarışları olan "Formula-1" üzrə Qran-Prisini uğurla keçirdi. 1950-ci ildən etibarən hər il keçirilən "Formula-1"in möhtəşəmliyi üçün paytaxtımızda istənilən şərait yaradılıb. 20 inkişaf etmiş şəhərdə keçirilən "Formula-1" Azərbaycanda yüksək səviyyədə təşkil olunur. Bakı 21-ci şəhərdir ki, bu oyunlara ev sahibliyi edir.

Məlumdur ki, Bakıda keçirilən "Formula-1" üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə etdi. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanalları yarışları müntəzəm yayımlayırlar. Beş yüz milyon televiziya tamaşaçısının Azərbaycan Qran-Prisində dünyanın ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, müasirliklə qədimliyin simvollarını özündə birləşdirən Bakı haqqında geniş məlumat əldə edə bilirlər. Yarışların müvəffəqiyyətlə keçirilməsinə Bakı hər zaman tam hazır vəziyyətdə olur. Artıq növbəti "Formula-1" Azərbaycan Qran-Prisinin ərəfəsindəyik. İyunun 4-də start götürəcək "Formula-1" ölkəmizdə həmişə olduğu kimi, yüksək səviyyədə keçiriləcək. Xatırladaq ki, "Formula-1" Yay Olimpiya Oyunları və futbol üzrə dünya çempionatından sonra öz kütləviliyinə görə üçüncü yerdə dayanır.

Yarış zamanı avtomobillər dənizkənarı bulvar boyunca hərəkət edərək, paytaxtımızın ən qədim hissəsi olan və YUNESKO-nun Ümumdünya irsi siyahısına daxil edilən İçərişəhər Tarixi-Memarlıq Qoruğunun ətrafında dövr edir. Bu, çoxsaylı xarici televiziya tamaşaçılarına şəhərin mənzərəsini, tarixi yerlərini görməyə imkan yaradır. Bu dəfə də Bakı dünya tamaşaçılarına maraqlı idman yarışı təqdim etməklə yanaşı, Azərbaycanın belə mötəbər yarışlara uğurla ev sahibliyi etdiyini, təşkilatçılıq bacarığını bir daha nümayiş etdirəcək.

*Zümrüd BAYRAMOVA*

# 4 İyun Gəncə qiyamı

Ötən əsrdə 71 il sovet rejimində yaşayan Azərbaycan yenidən müstəqilliyinə qovuşdu. Mücadilə yolu ilə, tökülən qanlar bahasına yenidən müstəqilliyini qazandı. Müstəqillik asan əldə olunmadı, gərgin ictimai-siyasi vəziyyət və böyük qurbanlar bahasına əldə edildi. Tarixi ədalət bərpa edildi. 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi. Tarixi reallıqlar, bir daha göstərdi ki, 71 illik sovet rejimi Azərbaycan xalqının müstəqillik arzularının üstündən xətt çəkə bilmədi. XX əsrin 80-ci illərinin sonunda başlanan tarixi-siyasi proseslərdə Azərbaycan xalqının istiqlala bağlılığı, müstəqil dövlətçiliyə malik olmaq arzusu, özünü açıq-aydın büruzə verdi. Azərbaycanın dövlət müstəqilliyi yolunda mücadiləsi, faktiki olaraq, 1988-ci ilin xalq hərəkatı ilə başlansa da, bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi.

Azərbaycanı gözü götürməyən qüvvələr xalqımızın uğrunda ardıcıl mübarizə apardığı milli azadlığına, dövlət müstəqilliyinə mane olmaq və onun mübarizə əzmini qırmaq üçün ən məkrli siyasi təxribatlara əl atdılar. Ermənistanın Azərbaycan torpaqlarının işğalı, respublikamızı daxildən parçalamaq və xalqımızı vətəndaş müharibəsi girdabına sürükləmək kimi cəhdləri Azərbaycanı olduqca çətin bir vəziyyətlə üz-üzə qoydu. Çünki hakimiyyətdə olan səriştəsiz rəhbərlər mövcud təhlükələrin qarşısının alınması istiqamətində lazımi tədbirləri görmək gücündə deyildilər.

### "1993-CÜ İLİN İYUN AYINDA AZƏRBAYCANDA BÖYÜK DÖVLƏT BÖHRANI YARANDI"

1993-cü ilin yayında ölkədə vəziyyət getdikcə ağırlaşdı, hətta müstəqilliyimiz təhlükə altında idi. Hakimiyyət strukturlarına, o cümlədən, silahlı birləşmələrə nəzarəti itirən o zamankı Azərbaycan iqtidarı isə, 1993-cü ilin yayında ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Artıq bir sıra ərazilərdə - Gəncədə, Lənkəranda, Qusarda və digər regionlarda bəzi silahlı birliklər separatçı iddialarla çıxış edib, mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər. 4 iyun 1993-cü ildə Gəncədə Azərbaycan Ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələrlə hökumət qüvvələri arasında silahlı toqquşma baş verib. S.Hüseynovun nəzarətində olan 709 saylı hərbi hissənin tərksilah edilməsi ilə bağlı həyata keçirilən əməliyyat uğursuz olub. Gəncəyə göndərilmiş hökumət rəsmiləri S.Hüseynovun dəstəsi tərəfindən girov götürülüblər. Bu hadisə Azərbaycanda dərinləşməkdə olan hərbi-siyasi böhranı kritik həddə çatdırıb və ölkə vətəndaş müharibəsi astanasına gətirilib. 8 iyun 1993-cü ildə Gəncə hadisələri ilə bağlı ölkədə böhran dərinləşib. S.Hüseynovun tabeçiliyindəki silahlı birləşmələr Gəncəbasar bölgəsində yerli hakimiyyət strukturlarını devirərək, Bakıya doğru hərəkət etməyə başlayıblar. Vətənin bu ağır günündə xalq Ulu Öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət edir. Ümummilli Lider Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəlib və qısa zaman ərzində, Azərbaycanda vətəndaş müharibəsinin qarşısını alıb.



1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı təhlükədən xilas etdi. O dövrdə baş verən hadisələr bir daha tarixi gerçəkliyi üzə çıxarmış olur. Belə ki, 1993-cü ilin iyununda xalqın dəvəti ilə Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycanın müstəqilliyindən söhbət açmaq mümkün olmayacaqdı. Ulu Öndər Heydər Əliyev bu məsələ ilə bağlı çıxışlarının birində belə deyirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı və o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi və qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək və Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar, belə bir zamanda, əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri və ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

### AZƏRBAYCAN TARİXİNDƏ KEYFİYYƏTCƏ YENİ BİR MƏRHƏLƏNİN BAŞLANĞICI

Məhz xalqın belə bir ağır məqamında dünya şöhrətli siyasətçi Heydər Əliyevin öz müqəddəs xilaskar missiyasıyla böyük siyasətə qayıdışı, Azərbaycanda illərlə davam edən anarxiyaya, siyasi hakimiyyətsizliyə, hərbiləşmiş cinayətkar dəstələrin qətl və özbaşınalıqlarına son qoymuş oldu. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişi cəhdləri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin həyatına sui-qəsd təşəbbüsləri artıq ən yeni tariximizin qara ləkələri kimi keçmişə həkk olunub. Bu təxribatlar müdrik dövlət başçımızın son dərəcə tədbirli, təmkinli və uzaqgörən siyasəti sayəsində baş tutmadı.Beləliklə, Azərbaycan bir əsrdə ikinci dəfə müstəqillik əldə etdiyi bir məqamda, müstəqilliyin itirilməsinə yol verilmədi. Məhz Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin varlığını qorudu və Azərbaycan qarşısında tarixi bir missiyaya imza atdı. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaratdı. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Milli Məclisinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev, qısa zaman kəsiyində, müharibə bölgəsində atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatlar yoluna keçirilməsinə nail oldu. Azərbaycan xalqının Ulu Öndərin azərbaycançılıq ideyası ətrafında daha sıx birləşməsi ilə müstəqil Azərbaycan dövlətçiliyi daha da möhkəmləndi. 1995-ci il 12 noyabrda müstəqil Azərbaycanın Konstitusiyası referendum yolu ilə qəbul edildi, bundan sonra sistemli şəkildə aparılan demokratik islahatlar sayəsində, ölkədə bazar iqtisadiyyatı münasibətləri bərqərar edildi.

### AZƏRBAYCANI DAHA UĞURLU GƏLƏCƏYƏ APARAN SİYASİ İRADƏ

Azərbaycanın bugünkü və gələcək nəsillərinin Ulu Öndər Heydər Əliyevin şərəfli adı, ölməz ruhu qarşısında müqəddəs borcu Onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq və milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində, Azərbaycan bu gün öz inkişafının ən sürətli dövrünü yaşayır. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilib və Onun əbədiliyi təmin edilib.Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız 44 günlük Vətən müharibəsində işğaldan azad edildi. Müzəffər Ali Baş Komandanın əmrinə əsasən, Ordumuz döyüş meydanında müharibə qanunlarına əməl etməklə, hərb tarixinə yeni səhifə yazdı. Artıq Qarabağ münaqişəsi həll olunub və Azərbaycan öz ərazi bütövlüyünü təmin edib. Prezident İlham Əliyevin vurğuladığı kimi, münaqişə artıq tarixə qovuşub və biz gələcəyə baxmalıyıq. Bu gün işğaldan azad edilmiş ərazilərdə aparılacaq bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir. Azərbaycanın işğaldan azad olunan torpaqlarında yeni həyat canlanacaq. Ermənilərin xarabalığa çevirdiyi məkanlar abadlaşdırılır. Bu məkanların infrastrukturu yenidən qurulur, müasirləşir, yeni yollar çəkilir. Bu, daha uğurlu bir gələcəyin yoludur.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Çin-Azərbaycan əməkdaşlığı: potensial və perspektivlər nə vəd edir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

**Xəbər verdiyimiz kimi, iyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında telefon söhbəti olub.**

Dövlət başçıları COVID-19 pandemiyası dövründə Azərbaycan və Çinin həqiqi dostluq nümayiş etdirərək, çətinliklərin öhdəsindən gəldiklərini və bir-birini dəstəklədiklərini məmnunluqla qeyd ediblər. Prezident İlham Əliyev COVID-19 pandemiyası ilə mübarizədə dəstəyə görə ÇXR Sədrinə təşəkkürünü bildirib.

Qeyd olunub ki, Azərbaycan və Çin siyasi, iqtisadi və nəqliyyat-logistika sahələrində uğurla əməkdaşlıq edirlər. Dövlətimizin başçısı Azərbaycanın Çinlə əlaqələri daha da möhkəmləndirməyə hazır olduğunu qeyd edib və Çin şirkətlərinin Azərbaycanda fəaliyyətinin daha da genişləndirilməsini alqışlayıb.

Prezident İlham Əliyev Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə səmimi təbriklərini ÇXR Sədri Si Cinpinə çatdırıb.

Si Cinpin Çin-Azərbaycan münasibətlərinin yeni tarixi mərhələnin astanasında olduğunu vurğulayıb və bildirib ki, hər iki ölkə ənənəvi dostluğu inkişaf etdirir, əməkdaşlığı dərinləşdirir və qarşılıqlı dəstəyi artırır. ÇXR Sədri Azərbaycanın "Bir kəmər bir yol" təşəbbüsünün reallaşdırılması istiqamətində vacib tərəfdaş olduğunu və Çinin Azərbaycan xalqının seçdiyi inkişaf yolunu dəstəklədiyini vurğulayıb.

Dövlət başçıları qeyd ediblər ki, 2022-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi qeyd olunacaq və bu əlamətdar hadisə iki ölkə arasında əlaqələrin daha da inkişafına imkan yaradacaqdır.

Dövlət başçıları hər iki ölkənin "Bir kəmər bir yol" layihəsinin inkişafı çərçivəsində fəaliyyətlərin birgə əlaqələndirilməsinin və mövcud imkanlardan faydalanmağın əhəmiyyətinə toxunublar. Həmçinin iki ölkənin nəqliyyat və logistika sahəsində əməkdaşlığı dərinləşdirməsinin, Mərkəzi Asiya və Avropada nəqliyyat dəhlizlərinin yaradılmasını təşviq etməsinin zəruriliyi qeyd olunub.

Si Cinpin Çin şirkətlərinin Azərbaycana investisiya qoyuluşunu daha da təşviq etməyə, infrastruktur layihələri çərçivəsində əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını bildirib. Eyni zamanda, o, Çinin Azərbaycandan yüksək keyfiyyətli xüsusi məhsulları idxal etmək niyyətində olduğunu vurğulayıb.

Söhbət əsnasında iki ölkənin hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin inkişafını təşviq etmək üçün birgə səylər göstərməyə hazır olduğu qeyd edilib.

Dövlət başçıları qarşılıqlı olaraq ölkələrinin ərazi bütövlüyü və suverenliyinə dəstəklərini ifadə ediblər.

Prezident İlham Əliyev 2022-ci ildə keçiriləcək Pekin Qış Olimpiya və Paralimpiya Oyunlarının təşkilində Çin Xalq Respublikasına müvəffəqiyyətlər arzulayıb.

## Azərbaycan-Çin iqtisadi əməkdaşlığı yüksələn xətlə davam edir

Təqdirəlayiq haldır ki, Çinlə Azərbaycan arasında qarşılıqlı iqtisadi əməkdaşlıq və siyasi tərəfdaşlıq yüksələn xətlə inkişaf edir.

Azərbaycan-Çin ikitərəfli ticarət dövriyyəsi son illər xeyli yüksəlib. Belə ki, 2015-ci ildə ticarət dövriyyəsi 561 milyon dollar, 2016-cı ildə 975 milyon dollar, 2017-ci ildə 1 milyard 300 milyon dollar, 2018-ci ildə 1 milyard 310 milyon dollar, 2019 və 2020-ci illərdə 2,2 milyard dolar olub. Bu isə 2018-ci ilə nisbətən 67 faizlik rekord artım deməkdir.

Azərbaycan Çinə 750 milyon dollarlıq məhsul ixrac edir, Çin isə Azərbaycana 1,5 milyard dollarlıq. Hələlik, Azərbaycanın xarici ticarətində Çinin payı təxminən 7 faiz təşkil edir, lakin bunu bir neçə dəfə artırmaq üçün real imkanlar vardır.

Azərbaycanın Çinə ixracı da hər il əhəmiyyətli dərəcədə artır. Hazırda respublikamız Çinə 800 milyon dollara yaxın dəyərdə mal ixrac edir. Çinin Cənubi Qafqaz ölkələri ilə ticarətində Azərbaycanın payı 45% təşkil edir.

İndiyədək Çin şirkətləri Azərbaycana 1 milyard dollar yaxın investisiya yatırıblar. Azərbaycanın Çin iqtisadiyyatına yatırdığı investisiyaların həcmi isə 1,7 milyard dollar təşkil edir. Pekin TANAP qaz layihəsinin maliyyələşdirilməsinə 600 milyon dollar kredit ayırıb.

Azərbaycanda 120-yə yaxın Çin sərmayəli şirkət fəaliyyət göstərir. ÇXR tərəfindən irəli sürülən məşhur "Bir kəmər - bir yol" qlobal nəqliyyat dəhlizi layihəsini ilk dəstəkləyən ölkələrdən biri Azərbaycan olub. Cənab Prezidentin 2015-ci ildə Çinə rəsmi səfəri zamanı "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb.

Azərbaycanın müəllifi olduğu Bakı-Tbilisi-Qars dəmiryolu və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "İpək Yolu İqtisadi Kəməri"nin tərkib hissəsi kimi mühüm yer tutur və ölkəmiz bu nəqliyyat marşrutları ilə malların Çindən Avropaya, Avropadan isə Çinə gətirilməsi üçün ən qısa yoldur. 2015-ci ildən etibarən Çindən ilk konteyner qatarı Xəzər dənizindən keçməklə Azərbaycana gəlib və 2018-ci ildən Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə yükdaşımalar həyata keçirilir.



COVID-19 pandemiyası dövründə ölkələrimiz arasında həmrəylik daha yüksək səviyyəyə çatdı. Belə ki, Çinin virusa qarşı yaratdığı peyvəndi təqdim etdiyi ilk ölkələrdən biri də Azərbaycan oldu.

Bu gün Çin Milli Neft Korporasiyası, ümumilikdə Çin şirkətləri Azərbaycanın karbohidrogen ehtiyatlarının işlənilməsində fəal iştirak edirlər. Bu sahəyə böyük sərmayə qoyurlar. Çin şirkətlərinin neft layihələrində iştirakı Azərbaycanda neft sənayesinə mühüm təsir göstərir.

## Çinlə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial var

Əvvəla, Çin dünyanın 3 fövqəldövlətindən biri olmaqla, BMT Təhlükəsizlik Şurasının veto hüququ olan 5 daimi üzvündən biridir. Dünyanın ən güclü iqtisadiyyatına malikdir. Əbəs yerə Çini dünyanın "fabriki" adlandırmırlar. Ən yüksək texnologiyalardan tutmuş ən adi məhsullara qədər istehsal edən ölkədir. Biz bu ölkədən təkcə istehsal malları yox, istehsal avadanlıqları almaqda da maraqlı olmalıyıq. Ölkəmizdə xammal problemi yoxdur. Dünya bazarına hazır məhsullar çıxarmaq üçün sadəcə texnologiyamız çatmır.

Amerika, Rusiya, Britaniya, Almaniya, Yaponiya sahib olduqları istehsal texnologiyalarını verməkdə maraqlı deyillər, Çin isə maraqlıdır. Ona görə də Çinlə iqtisadi əməkdaşlıq texnologiyaların idxalı üçün ən əlverişli imkandır. Qərb ölkələrindən "od" qiymətinə aldığımız istənilən texnikanı və texnologiyanı Çindən çox ucuz ala bilərik.

Biz Çinlə müxtəlif sahələrdə birgə müəssisələr də yaratmalıyıq. Çin texnologiyası ilə məhsullar ucuz başa gəlir, istehsal həcmi də, keyfiyyəti də yaxşı olur. Nüfuzlu Çin şirkətlərinin məhsullarının burada istehsalını təşkil edə bilsək, onların Qərb bazarına rahat çıxışı olar və yaxşı da satılar. Beynəlxalq iqtisadi araşdırma mərkəzləri yaxın vaxtlarda Çinin iqtisadi sferada təkbaşına hegemonluğu ələ alacağını deyirlər. Bu halda bütün dünya iqtisadi cəhətdən Çindən asılı vəziyyətə düşəcək.

Böyük İpək Yolu layihəsinin müəllifi kimi Çin Avrasiyanı bir xətdə birləşdirməyə və böyük ticarət kanalları yaratmağa başlayıb. Burada trilyonlarla dollarlıq dövriyyədən söhbət gedir. Ölkəmiz strateji regionda yerləşdiyindən İpək yolunun bir qanadı üzrə öz mövqeyindən yararlanaraq yaxşı gəlirlər əldə edəcək. Çinlə əməkdaşlığın həm iqtisadi, həm də siyasi dividendləri olacaq. Çinin dünya siyasətinə təsiri getdikcə artır. Onun tam dəstəklədiyi və hərtərəfli əməkdaşlıq etdiyi ölkə inkişafını sürətləndirəcək. Biz Çinin regionda əsas iqtisadi tərəfdaşına çevrilməklə böyük dividentlər əldə edə bilərik.

Son 20-30 ildə Çin iqtisadi inkişafını daha da artırdı. Ümumi Daxili Məhsulun həcminə görə, "dünyanın fabriki"nə çevrildi. Yüksək texnologiyalardan tutmuş ən adi mallara qədər Amerika və Avropa firmalarını dünya bazarından sıxışdırıb çıxartdı. Çinin Dünya Bankının kreditlərinə ehtiyacı yoxdur. Çin özü bir çox ölkələrə kredit verir. ABŞ-in özünün Pekinə trilyonlarla borcu var. Bir sıra beynəlxalq bankların yaradılması məhz Çinin adı ilə bağlıdır. Hazırda Pekin dünyanın ən böyük investorudur.

Çin son dövrlərdə bir çox Afrika və Asiya ölkələrinə külli miqdarda investisiya qoyub. Bütün cəhdlərə baxmayaraq, bu ölkənin inkişafını dayandırmaq Amerikaya müyəssər olmadı. ABŞ tərəfindən idarə olunan beynəlxalq təşkilatların yeganə məqsədi Amerika və Avropanın maraqlarını, mənafelərini təmin etməkdir. Həmçinin, digər dünya ölkələrinin inkişafının qarşısını almaq, onları ucuz xammal ölkəsi kimi saxlamaq və sərvətlərini talayıb Qərbə daşıtdırmaqdır. Lakin bu siyasət artıq ifşa olunub və iflasa uğrayıb. Ölkələr alternativ təşkilatlar, fondlar, banklar yaradaraq, öz aralarında iqtisadi əməkdaşlığı və ticarəti artıraraq Qərbdən asılılığını azaldır və nəzarətdən çıxırlar. Dünyanı uzun müddət belə talamaq mümkün ola bilməzdi. Nə vaxtsa bu, başa çatmalıydı.

Görünən odur ki, artıq proses başlayıb. Tezliklə dünyanın iqtisadi, siyasi və sosial mənzərəsi dəyişəcək. Biz də bu prosesdən qazanclı çıxmaq üçün bütün imkanlara malikik. Xammal ölkəsindən sənaye ölkəsinə çevrilməklə böyük iqtisadi inkişaf təmin edə bilərik və bu da dövlətimizin dünyada nüfuzunu və qüdrətini dəfələrlə artırar.

***Elçin Bayramlı***

# “Paşinyanın dedikləri Ermənistanda təlatümə gətirib çıxaracaq”

*SİA hərbi ekspert Ədalət Verdiyevin müsahibəsini təqdim edir:*



***- Erməni cinayətkarlığının məhkəmə prosesi artıq başlayıb. Bu məhkəmə prosesinin önəmi nədir? Hansı proseslər cərəyan edir?***

- Baş verən proses əslində hüquqi bir məsələdir. Lakin bu məhkəmənin Azərbaycan üçün önəmli olan məqamları da var. Yəni biz 30 il erməni işğalına məruz qaldıqdan sonra bu gün qalib ölkə kimi erməni terrorçularını ilk dəfə məhkəmə qarşısında görürük. Bu çox önəmli və əhəmiyyətli məsələdir. Hələ də 4 mindən çox vətəndaşımızın taleyi ilə bağlı Ermənistan tərəfindən məntiqli cavab ala bilmirik. Ümumiyyətlə bu proseslərdə Azərbaycanın məsələyə hüquqi baxımdan daha doğru, ədalətli yanaşdığının şahidi oluruq. Hesab edirəm ki, Azərbaycana vaxtilə silah çevirənlər, öz ərazilərimizdə bizə qarşı təcavüz edənlərin məhkəmə qarşısında ən ağır cəzanı alması həm də Azərbaycanın beynəlxalq hüquq baxımından yanaşmasına xarakterizə edəcək. Bununla belə onlara məhkəmədə vəkil tutulur, onlar terrorçu olsalar belə onların hüquqları qorunur. Düşünmürəm ki, bu kimi nüanslar onların cəzalarının yumşaldılmasına təsir göstərsin. Ümumilikdə isə bu kimi tədbirlərin keçirilməsi maksimalist düşüncələrə qapılan erməni kilsəsinin, “Daşnaksütyun” kimi partiyaların, revanşist qüvvələrin təsiri altında Azərbaycan ərazilərinə müdaxilə etməkdən bu gün də çəkinməyən ermənilərə konkret bir nümunə olacaq. Ərazimizə sərhədlərimizin tam bərpası, delimitiasiyası, demarkasiyası bitmədən hansısa bir şəkildə daxil ola bilər. Lakin bu sonda bu gün davam edən məhkəmə prosesləri ilə nəticələnəcək. Bu baxımdan bu kimi prpseslərin həyata keçirilməsi böyük əhəmiyyət daşıyır.

***- Bir müddətdir ki, davam edən Azərbaycan-Ermənistan sərhədlərində gərginlik nə ilə nəticələnəcək?***

- Ermənistan tərəfindən ardı-arası kəsilməyən təxribatlar, həm Kəlbəcər, həm də Laçın istiqamətində davam edir. Atəşkəsin pozulması kimi hadisələrə isə ilk dəfə Şuşa yaxınlığında rast gəldik. Baş verən proseslər göstərir ki, Ermənistanın siyasi rəhbərliyi hazırki, ciddi bir gərginlik yaratmaq arzusunda olmaz. Çünki seçkilərə yaxın bir vaxtda bu kimi gərginlik Ermənistan tərəfinin növbəti dəfə məhkəmə qarşısında daha ciddi cəzalanması ilə yekunlaşa bilər. Bu insanların hər birinə aid olan bəlli bir silahlı qruplaşmalar, qüvvələr və onların maraqlarında fəaliyyət göstərə biləcək erməni silahlıları çoxdur. Bundan başqa Ermənistan ərazisində terror qruplaşmalarının da olduğunu bilirik. Qarabağda “Voman”ın çıxarılmasına dair bizim əlimizdə konkret və dəqiq görüntülər yoxdur. Bu qüvvələrin nə zaman təxribat törədəcəyini heç kim bilə bilməz. Bu təxribatların başında kimin durduğunu son həftələr ərzində Azərbaycan tərəfindən saxlanılan erməni terrorçuları deyəcəklər. Düşünmürəm ki, hüquq-mühafizə orqanlarımız artıq bu barədə müəyyən məlumatlara malikdir. Lakin rəsmi açıqlamalar olmadığına görə, biz bu məsələdə biraz gözləməliyik. Görünən odur ki, Azərbaycan tərəfi həmin ərazilərdə, xüsusilə gərginliyin baş verdiyi ərazilərdə kifayət qədər ciddi imkanlara malik qüvvələri yerləşdiriblər. Onların zərərləşdirilməsi üzrə fəaliyyətlər artıq daha təmkin nümayiş olunmadan həyata keçirilir. Cənab Prezident də artıq təxribatlara son verilməsi ilə bağlı mesajları səsləndirib. Ardınca Müdafiə Nazirliyi sərt və qəti cavabın verilməsi ilə bağlı qoşun-birlik komandanlarına öz göstərişini verib. Ümumilikdə proseslər onu göstərir ki, “Dəmir Yumruğ”un növbəti dəfə zərbəsini almaq istəyən Ermənistanın xahişinə müsbət yanaşa bilərik.

***- Erməni tərəfi faktiki olaraq sərhədlərin dəqiqləşdirilməsi məsələsindən qaçır. Bu halda sərhəddəki proses necə tənzimlənəcək?***

- Tutaq ki, Ermənistan üçtərəfli bəyanatın şərtlərinə razı oldu. Belə olduqda Azərbaycan təbii ki, sərhədlərini müəyyənləşdirmək üçün mövqelərini irəli çəkəcək. Bu birmənalıdır. İndi seçkilərə gedən zaman Ermənistanın növbəti dəfə qoşunlara geri çəkil əmrini Paşinyanın səsləndirməsi Ermənistanda təlatümə gətirib çıxardacaq. Paşinyanı zatən rəqibləri devirmək, tənqid atəşinə tutmaq üçün dəlil axtarırlar. Paşinyan üçün ən böyük tənqid Azərbaycana qarşı müharibədə məğlub olması, ordunun darmadağın edilməsi və ordu texnikalarının maksimum sayda sıradan çıxmasıdır. Belə bir fonda Ermənistanda Paşinyan hələ də yerində qalıbsa bu onun üçün böyük nailiyyətdir. Bu onların daxili problemləridir. Bizə aidiyyatı yoxdur. Azərbaycan isə həmişə olduğu kimi bu məsələləri atəş gücü ilə deyil, danışıqlarla həllinə üstünlük verir. Amma bu o demək deyil ki, biz erməni təxribatlarına səssiz qalacayıq.

***- Ermənistan baş nazirinin müavini Mqer Qriqoryan bəyan edib ki, Ermənistan heç vaxt dəhliz mövzusunu müzakirə etməyib və etməyəcək də. Bu bəyanatı necə izah etmək olar?***

- Dünyada məğlub tərəflə çox məsələləri müzakirə etmirlər. Yəqin Mqer unudub ki, onlar məğlub tərəfdir. Əgər bunlar müzakirə olunmayıbsa Paşinyanın imzası olduğu iki bəyanatın mətnini oxumalıdır. Bununla yanaşı, Mqerin gözləri Laçın dəhlizini görmürmü? Biz Laçın dəhlizini onlara vermişik. Məğlub tərəfə dəhliz vermək bizim borcumuz deyildi. Biz onu Zəngəzur dəhlizinin açılması qarşılığında vermişik. Mqer siyasi bir fiqurdur. Onu bəzi havadarların səsləndirdiyi bəyanatlar bir az ruhlandırıb. Amma o bəyanatların heç biri Azərbaycan ərazilərinin Ermənistana qayıtmasını nəzərdə tutmur. Azərbaycan öz ərazilərində müharibə aparıb, öz ərazilərini xilas edib. Üçtərəfli bəyanat isə Azərbaycan sərhədlərinin qorunmasını nəzərdə tutur. Hansı qüvvə bu bəyanatın şərtlərini pozmağa cəhd etməyə çalışsa, Azərbaycan dərhal bu bəyanatı tərk edə bilər və lazımi siyasi hüquqi addımları atar və məsuliyyət tamamilə Ermənistan üzərində qalar. Çünki birgə bəyanatın şərtlərində göstərilib ki, Qarabağdan Ermənistan silahlı qüvvələri çıxarılsın.

***- Azərbaycan və Ermənistan arasında yeni sazişə ehtiyac varmı?***

- Sazişlər ola bilər. Bu qadağan olunmur. İmzalanan iki bəyanatla hər iki tərəf öz mövqelərini ortaya qoyublar. Bəyanatdakı ana bəndləri qeyd-şərtsiz yerinə yetirməyə məcburdurlar. Burada məcbur olan tərəf Ermənistandır. Hər iki bəyanatın da şərtlərinə Azərbaycan riayət edir. Atəşkəsə riayət edirik. Əgər atəşkəsə əməl etməsəydik ərazimizə keçən həmin minabasdıran erməniləri güllələyərdik. Yəni nizamnamənin tələbləri əsgərimizdən bunu tələb edirdi. Sadəcə atəşkəs rejimi və münbit şərait olduğuna görə, həmin insanların danışdırılması, məhkəmə qarşısına çıxarılması Azərbaycanın maraqlarına uyğun olduğu üçün doğru addım atıldı. Mən qan tökülməsinin tərəfdarı deyiləm. Amma sən hər gün işğalçı ölkə olaraq başının üstündəki qalib ölkənin bayrağını görməzdən gəlirsənsə mənim səni məhv etmək haqqım var. Amma biz yenə də humanistliyimizi ən çətin vəziyyətdə belə göstəririk. Ermənilər bunu anlamırsa bu onların öz problemləridir. Amma bunun digər mənəvi tərəfi də var ki, Azərbaycan dünyaya öz niyyətini və təcavüz faktının hələ də davam etdiyini bununla göstərəcək.

***Arzu Elsevərqızı***

# Paşinyanın deputatlığa namizədi İran vətəndaşı imiş...




Ermənistan Vətəndaş Razılaşması Partiyasından deputatlığa namizəd göstərilən Tiqran Davudyanın İran vətəndaşı olduğu aşkarlanıb. “İki sahil” “Novosti Armeniya”ya istinadən xəbər verir ki, bu məlumatı Seçkilərə nəzarət üzrə komitə bildirib. “Seçkilərə nəzarət üzrə komitənin internetdə apardığı monitorinq nəticəsində Vətəndaş Razılaşması Partiyasından deputatlığa namizədliyi irəli sürülən Tiqran Davudyanın İran vətəndaşı olduğu aşkarlanıb. Bu, Ermənistan Konstitusiyasının tələblərinin pozulmasıdır. Konstitusiyaya əsasən, son 4 ildə Ermənistan vətəndaşı olan şəxsin namizədliyi seçkili orqanlara irəli sürülə bilər”, - komitədən bildirilib. Tiqran Davudyana İran İslam Respublikası vətəndaşlığından çıxmasına dair sənədin surətini təqdim etmək məsləhət görülüb.

Qeyd edək ki, Ermənistan baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyan Vətəndaş Razılaşması Partiyasının qurucusudur. Xatırladaq ki, iyunun 20-də Ermənistanda parlamentə növbədənkənar seçkilər keçiriləcək.

# “Bu toplum başına ip salınıb ortada oynadılır”



“Erməni toplumu 100 il, 200 il bundan əvvəl də müxtəlif yollarla, ianələr hesabına kənardan gələn güclər, maliyyələr silah-sursat hesabına yaşayıblar və dolanıblar və bu gün də o xasiyyətlərini tərgitməyiblər. Yəni, bunlar tarix boyu böyük güclərin əlində həmişə maşa, alət olublar. Bunların tarixi budur və deyilənlər tarixi faktlardır.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib. Millət vəkili xatırladıb ki, 20-ci əsrin əvvəllərinə nəzər salsaq görərik ki, həmin dövrdə də bunlar beləcə xam xəyallara, dırnaqarası “Böyük Ermənistan” xülyasına düşmüşdülər.

“Məsələn, Fransa kimi, Rusiya kimi dövlətlər bunların bu xam xəyallarından öz məqsədləri üçün məharətlə istifadə etdilər. Onlar bu toplumdan istifadə edib, bunları gücləndirib Türkiyə daxilində üsyanlar qaldırmaq, çaxnaşma başlatmaq, bunların əli ilə Türkiyəni işğal edib darmadağın etmək istədilər və Türkiyə ərazisində bunlara da dövlət yaradılacağı vədi verildi. Sonu nə oldu məlumdur. Bu gün də həmin vəziyyətdir. Yəni, bu məsələ 1980-ci illərdə də, 1988-ci illərdə də başladı və yenə həmin böyük güclər bunları gücləndirdi, bunları təlimatlandırdı, bunlara ümidlər verdi və saldı meydana. Doğrudur, bu dəfə bir az uzun müddət, 30 ilə yaxın çəkdi bunların bu dırnaqarası uğuru. Bunlar da elə bildilər ki, Azərbaycanın iradəsini qıra biləcəklər, bu torpaqlar da əbədi onlara qalacaqdır. Ancaq 44 günlük müharibə bunun nöqtəsini qoydu, torpağın sahibləri torpağına sahib çıxdı.

Bu gün bunlar nə istəyirlər? Bu gün bunlar dəqiq bilirlər ki, Azərbaycanın nəhəng gücü qarşısında tam məğlubdurlar, acizdirlər və bir daha bu gücə qarşı çıxa bilməzlər, çıxmaq da bunlar üçün intihara bərabər bir hadisə olar. Nə istəyirlər bunlar və niyə çabalayırlar belə? Bunlar yenə Fransa kimi, şimal kimi, cənib kimi qonşularımızdan, başqalarından yenə də iyanələr hesabına, torbalarını götürüb, gedib dilənmək hesabına dirçəlmək, yaşamaq istəyirlər. Bunlara elə gəlir ki, o kənar qüvvələr Azərbaycana nə isə təsir edib bunlara da nə isə verə bilərlər. Ancaq bu məsələlər qurtarıb və bu məsələlərin nöqtəsini bizim 44 günlük Vətən müharibəsindəki qələbəmiz qoydu və cənab Prezidentimiz dedi ki, Qarabağ münaqişəsi deyilən bir şey tarixdə qaldı, qurtardı və o status dedikləri cəhənnəmə getdi, gora getdi. Cənab Prezidentimiz bunlara başa salır, bunlara izah edir, bütün beynəlxalq tədbirlərdə cənab Prezidentimiz bu sözü deyir ki, Ermənistanın gələcəkdə normal yaşamaq yolu qonşularla əməkdaşlıqdan, tərəfdaşlıqdan, bölgədə dayanıqlı sülhdən keçir. Ancaq bu nadanlar bunu başa düşmək istəmirlər. Başa düşə bilərlər, amma yenə də özlərinin içində olan müəyyən qüvvələr, kənardan bunlara fitva verən qüvvələr buna mane olur.

Bu gün sərhəd bölgələrində törədilən təxribatlar, Azərbaycana qarşı müəyyən bəyanatlar, bunlar faktiki olaraq nəyə hesablanıb? Faktiki olaraq bunlar 17-18 gündən sonra Ermənistanda baş tutacaq, yaxud tutmayacaq Parlament seçkilərinə hesablanıb. Bu gün Ermənistanda çox gərgin, vətəndaş müharibəsi səviyyəsinə çatdırılmış bir durum var. Yəni, bu ölkədə Koçaryan dəstəsi və ona qarşı olan Paşinyan dəstəsi var ki, onların hər ikisinə vədlər verilir. Şimaldan birinə, Qərbdən də birinə vədlər verilir. Hər ikisi düşüb qapılara, elçiliyə, tərəfdaş toplamağa. Bu cəbhə bölgələrində baş verən hadisələri də iki versiya ilə yozmaq olar. Birincisi, Paşinyan, deyək ki, bu məsələlərə rəvac verir və sərsəm bəyanatlar verməkdə davam edir, hansı ki, Fransada da gedib axmaqladı. Fransa prezidenti Makron da elə bundan artıq axmaqdır. Onlar bir yerdə ağızlarına gələni danışırlar. Yəni, bu kütləyə oynamaq, tərəfdarlarının sayını çoxaltmaqdır ki, guya təslim olmayıblar, olmayacaqlar və guya sözlərini hələ deyəcəklər. Ancaq söz bitib, qurtarıb.

İkinci məsələ nədən ibarətdir? Ordu Paşinyan tərəfindən bu gün idarə oluna bilmir. Paşinyan orduya nəzarət edə bilmir. Koçaryan, Sarkisyan və onların tərəfdarları, köhnə cinayətkarlar, köhnə qurdlar, Qarabağ klanı bundan istifadə edib, orduya müəyyən yollarla təsir göstərib təxribatlar törədirlər ki, daha böyük fəlakətlər olsun, Paşinyan daha da laxlasın. Yəni, Ermənistandakı bugünkü durum, bu təxribatlar əsasən 70-80 faiz seçkilərə hesablanıb. Bu, hamam suyu ilə dost tutmaq kimi bir şeydir.

Bu toplumun içərisində də sağlam düşüncəyə malik müəyyən siyasətçilər, müəyyən adamlar olmamış deyil, var və onlar xalqı səfərbər etməlidirlər ki, bu cinayətkar dəstədən qurtarsınlar. Cənab Prezidentimiz Ağdama səfərində belə bir ifadə işlətdi ki, bu millət, bu xalq 30 il ərzində dövlət və dövlətçilik yarada bilmədilər, demək bunlar buna layiq deyil və bunlar bunu bacarmırlar. Həqiqətən də belə oldu və 30 il ərzində Petrosyan, Koçaryan, Sarkisyan, indi də Paşinyan bu toplumun başına ip salıb öz mənafeləri üçün ortada oynadırlar. Bu gün də o proseslər davam edir. Mən hesab edirəm ki, Azərbaycan güclü dövlətdir, bu güclü dövlətin güclü ordusu var, Azərbaycanda iqtidar-xalq-ordu birliyi dəmir yumruqdur və bu yumruq 44 gün düşmənin başına dəydi, onu məhv elədi və bu dəfə bunlar axmaqlasalar, həmin o dəmir yumruq İrəvanda bunların təpələrinə dəyəcək və bununla da bunların sonu olacaq”, deyə Elman Məmmədov bildirib.

***İnam Hacıyev***

# Fransanın gerçək

## siması - fotolarla söhbət

İlham Əliyev: “Bir gedin baxın, güzgüyə baxın, neçə dəfə mən bunu deməliyəm!”



Yəqin ki, bir çoxlarınız Qarabağımızın erməni işğalından azad olunması uğrunda başladılan 44 günlük Zəfər yürüşündən sonra Bakıda, Azadlıq Meydanında möhtəşəm hərbi paradı və həmin paradda düşmənin ələ keçirilmiş, məhv edilmiş hərbi texnikalarının nümayişi görüntülərini unutmamısınız. Bu, həm də uzun illərdən bəri ikili standartlara bölünmüş dünyaya verilən bir mesaj idi ki, haqsızlığa uğrayan heç bir xalq, heç bir dövlət bu haqsızlıqla barışmaya və ədalətin bərpası üçün ayağa qalxa, ədalətsizliyi məhv edə bilər. Gec, ya da tez həmin hal mütləq yaşanır. Belə ki, illərdən bəri yığılmış qəzəb, qisas hissi də düşmənin həyasız davranışları, həmçinin ona qahmar çıxan xarici dövlət və qurumların etinasızlıqları, aşkar qərəzləri də öz sözünü deyirdi - deyirdi ki, bütün bunlara birdəfəlik son qoyulmalıdır!

### Sözümün isə canı var...

Torpaqlarımızı məlum ölkələrin dəstəyi ilə üç onilliklər boyunca işğala, təcavüzə məruz qoyan, insanlarımızı xüsusi amansızlıqla, vəhşiliklə qətlə yetirən, soyqırımları törədən, doğma yurd-yuvalarından didərgin salan düşmən Ermənistanın siyasi başbilənləri elə sanırdılar ki, artıq onlar üçün hər şey həll olunub və işğal prosesi davam edəcək. Üstəlik onlar Kür nədir, hətta Bakıya doğru irəliləyərək Xəzər də-



nizi ətrafında çay içəcəkmişlər. Amma sonra nə oldu? Deyir sən saydığını say, gör fələk nə sayacaq? Azərbaycanın səbri tükəndi və xalq öz Liderinin ətrafında sıx birləşməklə Sərkərdəsi, Müzəffər Ali Baş Komandanı sayəsində həsrətində olduğu qələbə həzzini yaşadı, bu gün də yaşamaqdadır. Sözümün isə canı var...

Bakıya gətirilən düşmən hərbi texnikalarının Hərbi Qənimətlər Parkında nümayiş etdirilməsi, eləcə də müharibədə düşmənin mənzərəsini tam şəkildə təqdim etmək üçün onların müqəvvalarının, fəaliyyət göstərdikləri səngər və blindajlarının, səhra komandanlıqlarının da parkda yerləşdirilməsi uzun illər Azərbacana qarşı işğal siyasəti aparan təcavüzkar Ermənistanın dünyaya göstərilən aşkar siması idi. Məhz bu mənada, yuxarıda da qeyd edildiyi kimi, sözügedən möhtəşəm layihə beynəlxalq aləmə verilən mesaj idi - xeyirin şər qarşısındakı qalibiyyətinin mesajı.

Ancaq nədənsə, bu layihə məhz 30 il boyunca əllərinə düşən hər imkanlarında haqqımızı boğan xrsitian klubuna üzv ölkələrin (bəziləri istisna olmaqla) xoşlarına gəlmədi və sözün əsl mənasında, haray-





hərşirləri dünyanı görütdü.

### Prezident: “Fransa muzeyində Əlcəzair Milli Müqavimət Hərəkatının öldürülmüş öndərlərinin kəllələri nümayiş etdirilir”

Xüsusilə, Fransanın bu məsələdə özünə əl qatması isə artıq nəyin-necə olduğunu bütün çılpaqlığı ilə ortaya qoydu. Biz, bu gün də həmin gerçəklikləri Parisin oyunbazlıqlarında görməkdəyik. Həmin Parisin ki, Afrika ölkələrində - Əlcəzairdə, Ruandada, Mərakeşdə və s. ölkələrdə dəhşətli vəhşiliklər törədib, soyrıqımı aktlarına imza atıb. İndi Fransanın guya “humanizm prinsipi” əsasında Bakıdakı Hərbi Qənimətlər Parkına qarşı dil uzatması reallıqda onun qanlı əməllərinin ifşasını yenidən açığa çıxmasına səbəb olur.

Əslində, Fransa da daxil olmaqla, sözügedən məsələdə haray-həşir salanlara layiq olduqları cavabları elə Prezident İlham Əliyev verib.

“Bu Hərbi Qənimətlər Parkı ilə Azərbaycana qarşı aparılan çirkin kampaniyaya son qoyulmalıdır. Fransa muzeyində Əlcəzair Milli Müqavimət Hərəkatının öldürülmüş öndərlərinin kəllələri nümayiş etdirilir. Bir gedin baxın, güzgüyə baxın, neçə dəfə mən bunu deməliyəm. Jurnalistlərə, xarici jurnalistlərə deməliyəm, xarici siyasətçilərə deməliyəm. Mən deyəcəyəm, mən susmayacağam. Amma onlar da öz işləri ilə məşğul olsunlar. Özləri problemlər içində çabalayırlar. Min cür problemləri var”, - Azərbaycan Prezidenti bildirib.

### Fransa, Mərakeşdə (Fəs) törətdiyi qətliamın fotolarını 1912-ci ilin poçt markalarında nümayiş etdirən bir dövlətdir!

Bəli, məhz dövlət başçımızın bu kəlamlarını xatırlayaraq daha bir fransız vəhşiliyi barədə xatırlatma etməyə ehtiyac duydum. Fransa, Mərakeşdə (Fəs) törətdiyi qətliamın fotolarını 1912-ci ilin poçt markalarında nümayiş etdirən bir dövlətdir!

Fransa Əlcəzairdə, Ruandada və s. Afrika ölkələrində, özü də dünyanın gözü qarşısında insanlıq adına yaraşmayan ən vəhşi əməlləri ilə yadda qala-qala ölkəmizə qarşı sərsəm bəyanatlar verəndə həqiqətən də dönüb güzgüyə baxmalıdır. Amma baxmır, çünki cürət etmir. Bu baxımdan, düşündüm ki, elə yazıya əlavə elədiyim fotolarla reallıqda işğalçı, təcavüzkar, faşizm ideologiyasından geri dönməyən Ermənistana qahmar çıxan, onu özünə 1 nömrəli müttəfiq elan edən Fransanın gerçək simasını bir daha xatırladım...

***Rövşən RƏSULOV***

# Qədimdən bu günə qədər saatların tarixi

**Saat, gün ərzində insanların ən çox izlədikləri, özləri də bilmədən həyatlarının bir parçasına çevrilən əşyadır. Qədim dövrlərdən vaxtı ölçmək istəyən xalqlar müxtəlif üsullardan istifadə ediblər. Belə üsullardan birincisi günəş işığı ilə vaxtın ölçülməsidir. İlk günəş saatını isə misirlilər düzəldib.**





Onlar Günəşin hər gün müntəzəm bir hərəkətlə doğmasını, müəyyən vaxtlarda göy üzünün eyni nöqtələrində olmasını, sonra batmasını müşahidə edərək ən qədim saatı kəşf ediblər. Misirlilər həmin saatı meydanın yüksək bir yerində qoyublar və günəşin hərəkəti əsnasında bu daşın kölgəsini izləməklə vaxtı ölçüblər. Bununla yanaşı, saat əqrəbinin sağa hərəkət etməsi də buradan yaranıb. Belə ki, Misir Yer planetinin şimal yarımkürəsində, ekvator xəttinə yaxın yerləşən ölkədir və Günəş çıxanda qədim misirlilərin düzəltdikləri saatda kölgə dərhal qərbdə meydana gəlir, Günəş yüksəldikcə kölgə şimala, yəni sağa doğru hərəkət edirdi. Daha sonralar, çarxlı, mexaniki, batareyalı saatlar yaradılanda da istiqamət dəyişmədi və beləcə, əqrəbin soldan sağa doğru hərəkəti günümüzədək gəlib çıxdı.

Lakin günəş saatı ilə yalnız gündüzlər vaxtı ölçmək mümkün olurdu, buna görə də daha əlverişli olan su saatı icad olundu. Su saatının yaranması isə eramızdan əvvəl II əsrdə Misirdə yaşayan qədim yunan riyaziyyatçısı, mühəndisi və ixtiraçısı Ktesibiosun adı ilə bağlıdır. Su saatlarının ilk versiyası dibində deşik olan qab idi. Qaba müəyyən miqdarda su tökülür, su axıb qurtardıqda vaxt ötüb keçirdi. Qabdakı deşiyin çirklənməsindən və suyun miqdarından asılı olaraq bu saatlar da vaxtı dəqiq ölçə bilmirdi. Sonralar mühəndis Ktesibios bu problemləri aradan qaldırmaq üçün yeni konstruksiya təklif edib. Qabdakı deşiyin dəqiqliyini artırmaq üçün o, deşiyi qızıldan və ya xüsusi daşlardan hazırlayıb.

Tarixi mənbələrə görə, 1259-cu ildə böyük Azərbaycan alimi Nəsrəddin Tusinin Marağa rəsədxanasında Ay və Günəş tutulmasını, gecə-gündüz bərabərliyini müşahidə edən müxtəlif cihazlar, Günəş və su saatı olub. Günəş və su saatlarından sonra sıra gəldi qum saatının kəşfinə. Qum saatı bərabər sürətli hərəkət prinsipi əsasında işləyirdi. Ələnmiş narın qumu ortası boğma şüşə qaba tökür və sonra qabı tərsinə çevirirdilər. Amma bu saatın yanında kimsə növbə çəkməli idi ki, qum şüşənin alt hissəsinə töküləb qurtaran kimi, yenidən qabı tərsinə çevirsin. Orta əsrlərdə mexaniki saatların kəşfi zamanın daha dəqiq ölçülməsinə imkan yaradıb.

Dünyada ilk sadə mexaniki saat 1335-ci ildə İtaliyanın Milan şəhərində düzəldilib. Sonralar illər ötdükcə mexaniki saat daha təkmilləşdirilib.

Müasir mexaniki saatın ixtiraçısı 1657-ci ildə kəfkiri saata daxil edən X.Hüygensdir. Saatın sonrakı təkmilləşməsi ingilis saatsazı U.Klementin və C.Qraqamın, sonra yenə də Hüygensin adı ilə bağlıdır. XVI əsrin sonunda dəqiqə əqrəbi, daha sonra isə saniyə əqrəbi meydana çıxıb. Ardınca saatlara ayın tarixini, həftənin günlərini göstərən əlavə mexanizmlər qoyulub.

1300-cü ildən başlayaraq Avropa ölkələrində qüllə saatları düzəldilib. Bəzi məlumatlara görə, ilk qüllə saatı Fransanın Strasburq şəhərində ucaldılıb. Hər kəsin heç olmasa şəklini gördüyü Big Ben də qüllə saatıdır. Qüllə saatları çox güc tələb edən mexanizm üzərində qurulurdu. Dünyadakı məşhur qüllə saatlarından biri də Çexiyanın paytaxtı Praqada düzəldilib. Təəssüf ki, həmin saatlar müasir dövrə qədər qorunub saxlanılmayıb. XV əsrin ikinci yarısından sonra saat istehsalında yeni təkmilləşmələr baş verib, divar, stolüstü, cib və bilək saatları yaradılıb. İlk cib saatları XIX əsrin əvvəllərində istehsal olunub. 1800-ci ildə isə dünyada ilk elektrik və elektromexaniki saatlar buraxılıb.

1952-ci ildə qurulmayan saat istehsal olundu, batereya ilə işləyən bu saat özünəqədər ki, bütün saatlardan öz dəqiqliyi ilə seçilirdi və öz dövrü üçün möcüzə sayılırdı. Ilk dəfə 1970-ci ildə bazarlarda elektron saatlar satılmağa başladı. Elektron saatlar vaxtı ölçən cihazların inkişafı sahəsində tamamilə yeni keyfiyyət mərhələsi təşkil edirdi. Bu gün pultla işləyən, MP3 çalan və şəkil çəkən saatlar da var. Çoxumuza məlumdur ki, müasir dövrdə İsveçrə ənənəvi saat ölkəsi kim tanınır. Bu gün ən yaxşı, möhkəm, dözümlü, sukeçirməz və digər keyfiyyətlərinə görə fərqlənən saatlar İsveçrə saatları hesab olunur. Hazırda dünyanın bir sıra ölkələrində saat muzeyləri fəaliyyət göstərir. Belə tanınan muzeylərlərdən biri Rumıniyanın Ployes şəhərində yerləşir. Bu, Şərqi Avropada yeganə olan Qədim Saatlar Muzeyidir. 1963-cü ildə yaradılan muzeydə 500 növdə gün, qum və su saatları qorunur. Qədim dövrlərdən bəri saat bizim dəyişməyən aksesuarımızdır. Bəs müasir modern saatların təmiri necə olur? Bu barədə usta saatsaz Hacı Fətəliyev fikirlərini bildirib: "Mən Respublikada düzəlməyən saatlara baxıram. Yəni bahalı, qədimi, detalı tapılmayan saatların təmiri ilə məşğuləm. Ümumiyyətlə, Bakı şəhərində bahalı brend saatların satışı həmin markaların dükanlarında satılır. Bahalı saatların qiymətləri isə min manatdan başlayaraq 50 minə qədər qiymətindədir. Ümumiyyətlə saat dəbdən düşməyən aksesuardır. Saatsazlara maraq ölmür, gündüngündən maraq artır. Saat həvəskarları və sevənlər olduqca çoxdur. Artıq saata baxmaq vərdiş olduğuna görə, bəzi insanlar qol saatı olmadan özlərini narahat hiss edirlər.

Mənə Təmir üçün verilən saatların 200 minlik, 95 minlik, 50 minlik qiymətində idi. Ən bahalı saatları düzəldib forma verə bilirəm.

Qədimi saatların düzəldilməsi müasir saatlara görə daha çətin və əziyyətlidir. Hətta mənə düzəldilməsi üçün verilən qədimi saatlardan birinin detalları itmişdi. Mən həmin saatı dəyişməmək şərtilə ehtiyat hissələrini toplayaraq yenidən istifadəyə yararlı etmişəm. Qədimi saatların əksəriyyəti sarı mexanizma ilə işləyir. Mən isə ağ çarxlardan istifadə edərək yığıram. Saat şüşələri tapılmayan orjinal saatların kəmərləri ilə eynisini düzəldirəm".

# Baş Prokurorluq məlumat yaydı

**İyunun 2-də Ermənistan mətbuatında həmin ölkənin morqlarında saxlanılan meyitlərdən bəzilərinin Azərbaycanın hərbi qulluqçularına aid olması ehtimalı barədə həqiqətəuyğun olmayan fikirlər səsləndirilib.**



Baş Prokurorluğun Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Ermənistan Səhiyyə Nazirliyinin tabeliyində olan morqlarda saxlanılan və kimlikləri məlum olmayan meyitlərin içərisində Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyətinə aid hərbi qulluqçu yoxdur. Belə ki, Ermənistan hüquq mühafizə orqanları tərəfindən təyin edilmiş məhkəmə-genetik ekspertizasının (DNT testi) rəyi ilə həmin meyitlərin erməni hərbçilərə məxsus olması müəyyən edilib.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin itkin düşmüş hərbi qulluqçularının tapılaraq doğmalarına təhvil verilməsi istiqamətində Azərbaycan Respublikası Baş Prokurorluğunun, Respublika Hərbi Prokurorluğunun, Dövlət Təhlükəsizliyi Xidmətinin, Müdafiə və Fövqəladə Hallar Nazirliklərinin peşəkar əməkdaşlarından ibarət axtarış qrupları tərəfindən intensiv iş aparılır.

# "Ölkədə daha vacib problemlər var"



Ölkədə, məsələn, hökumətin, bilinməyən bir səbəbə görə dərhal parlamentin müzakirəsinə təqdim etmək qərarına gəldiyi "Avtomobil nəqliyyatı haqqında" qanundan daha əhəmiyyətli problemləri var. SİA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumatlara istinadən xəbər verir ki, bu sözləri müxalifətçi millət vəkili Naira Zoqrabyan 3 iyun tarixində Milli Məclisin növbədənkənar iclasında söyləyib.

O, xüsusilə vacib müzakirələrə ehtiyac olduğunu deyib. "Virtual reallıqdan çıxmağın və obyektiv gerçəkliyə qayıtmağımızın vaxtı gəlib. Ölmüş erməni əsgərlərinin döşəməyə kartof çuvalları kimi səpələnib torbalara bükülmüş qalıqlarının bir morqdan digər morqa daşınmasının necə baş verdiyini müzakirə etməliyik", deyə millət vəkili bildirib. Müxalifətçi özünün də Abovyan meyitxanasında olduğunu və bu dəhşətli mənzərəni gördüyünü deyib. "Fakt budur ki, bu meyitxanada cəsəd və qalıqların saxlanılması üçün 10 yer var", deyə millət vəkili əlavə edib.

Xatırladaq ki, son günlər mediada, xüsusən Ermənistan mətbuatında, eləcə də sosial şəbəkələrin erməni seqmentində ölmüş erməni hərbçilərinin, erməni əsilli əsgərlərin cəsədlərinin qalıqlarının polietilen torbalarda meyitxalanalara atıldığını əks etdirən foto və video görüntülər yayılıb. Bu da erməni cəmiyyətində rezonans doğurub. Hətta buna görə etiraz aksiyaları da keçirilir. Ermənistan vətəndaşları, eləcə də siyasətçiləri, ekspertləri bu məsələdən işğalçı ölkə rəhbərliyinin xəbərsiz olmadığı, cəsədlərin bilərəkdən gizlədildiyi qənaətindədirlər. Məhz buna görə də Ermənistan Parlamentində də bu məsələnin səsləndirilməsi gözlənilən idi.

*İnam Hacıyev*

## Benzinin bahalaşması nəyə səbəb olacaq?

"Benzinin qiymətinin qalxması ilkin aylarda və kvartalda iqtisadiyyata təsir edəcək. lakin güclü bir dəyişiklik hiss olunmayacaq. Amma diqqət etsək, önümüzdəki aylarda insanlarda xüsusilə, ekonom maşınlara keçid üstünlük təşkil edir. Bu yeni nəqliyyat vasitələrinin bazara daxil olmasına gətirib çıxardacaq. lakin benzin istifadəçiləri sinfinə məxsus olan "premimum klas" istifadə edən insanlar üçün bunun fərqi yoxdur". Bu sözləri SİA-ya açıqlamasında beynəlxalq ekspert Asif İbrahimov deyib. Onun sözlərinə görə, Azərbaycan iqtisadiyyatının özünəməxsus qanunauyğunluqları olduğuna görə, bunu hər hansı bir iqtisadi məsələ ilə bağlamaq olmaz: "Benzinin qiymətinin qalxması Azərbaycanın neft emalı ilə məşğul olan qurum tərəfindən Tarif Şurasına verilmiş sorğunun nəticəsidir. Bu da ötən dövr ərzində neft emalı üzrə xərclərin bahalaşması ilə izah olunur. Bu sahədə ciddi maya dəyərinin artımı müşahidə edilir. Mən düşünürəm ki, bu qiymətlərin artımını həyata keçirməkdənsə daha yaxşı olardı ki, xərcləri azaltmağa diqqət yetirilsin".



*Ayşən Vəli*

## Ermənistanda narkotik bitki becərilməsinə icazə verilib

Ermənistanda narkotik bitki olan çətənə əkilib-becərilməsinə qanunvericilik səviyyəsində icazə verilir. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Ermənistan Parlamenti 3 iyunda keçirilən fövqəladə iclasında ikinci və son oxunuşda "Narkotik və psixotrop maddələr haqqında" qanuna dəyişiklik edib. Qanunvericilikdə olan dəyişikliklərə uyğun olaraq, narkotik çətənə becərilməsinə icazə veriləcəkdir. Qeyd olunur ki, bu prosesdə iştirak edəcək şirkətlər və şəxslər lisenziyalı olmalı və kvota tələblərinə əməl etməlidirlər.

Lisenziyalaşdırmanın xüsusiyyətləri bir şəxsin lisenziya almaq üçün yerinə yetirməli olduğu məcburi meyarların dəqiq sistemləşdirilməsi ilə təmin edilir. Yalnız əvvəllər məhkum olunmuş və ya əfv edilmiş şəxslərin bu fəaliyyət növü ilə məşğul olmaları qadağandır.

# Çörçillin anası hesabına “mühüm” dövlətə çevrilən Fransa

## Yaxud, Allah dünyanın üzünə baxıb...

**Artıq sirr deyil və tamamilə açıq-aydın görünür ki, son vaxtlar Fransanın adı yalnız qalmaqallı bəyanatlar, əsassız ittihamlar, mənasız siyasi manevrlər və digər ölkələrin siyasətinə qarışmaq cəhdləri ilə bağlıdır. Sanki bu Robespyerin, Napoleonun və Şarl de Qollun ölkəsi deyil. Vaxtı ilə kifayət qədər nüfuzu olan bu ölkə son dövrlərdə cılız və uğursuz siyasi avantüralarla məşğul olur: Liviyada Həftarı, Belarusiyada Tixanovskayanı və nəhayət - Ermənistanı və Paşinyanı dəstəkləyir. Yəni Makron indi özünə əl qatıb ki, de Qollun, Jak Şirakın, Fransua Mitteranın dövründəki rolu oynasın, amma sabiq Rusiyanın mərhum baş naziri Çernomirdin demişkən: “İstəyir ki, yaxşı alınsın, amma yenə həmişəki kimi alındı”.**

Indi də Emmanuel Makron, qaş düzəltmək istəyərkən, hər dəfə vurub göz çıxarır. Görün nə yerə çatıb ki, Fransa hərbçiləri ölkələrində çevriliş təhlükəsi haqqında artıq üç ardıcıl bəyanat veriblər. Fransa dağılır və olan-qalan nüfuzunu itirir, üstəlik, Ermənistan kimi cılız və saxta dövlətin səviyyəsinə düşərək onunla “bir nömrəli müttəfiqə” çevrilir!



### Allah sənə rəhmət eləsin, Mirzə Fətəli, yaxud Emmanuel Makron Müsyö Jordandan hansı ibrəti götürməlidir?

Allah sənə rəhmət eləsin, Mirzə Fətəli Axundov! Yəqin “Hekayəti Müsyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah Cadükuni Məşhur” əsərindəki hadisələrinin həqiqətdə lakin bir az da fərqli formada nə vaxtsa baş verəcəyini bilmirdi. Yəni fransız botaniki Müsyo Jordan gəlib Qarabağda təbii təbabət araşdırmaları aparan müddətdə Parisdə inqilablar baş verir və elə eyni qaydada Makron da bu regionu tərk edib Parisə dönsə daha yaxşı olar. Yoxsa Parisi partladacaqlar...

Yeri gəlmişkən, belə bir ideya ilə də çıxış edə bilərik ki, bizim Fransadakı səfirliyimiz bu möhtəşəm əsərin fransız dilində olan ilk çap nümunəsini cənab Makrona göndərsin. Makron da özünün sərsəm siyasi baxışlarından, uyğunsuz yuxularından ayılsın və bəlkə də, nəhayət (!) Qarabağın harada olduğunun və ora etdiyi müdaxilənin necə nəticələnə biləcəyini anlasın...

Amma yəqin bir çoxları onu da bilmirlər ki, Fransa BMT Təhlükəsizlik Şurasına necə üzv seçilib, süni olaraq dünyada “söz yiyəsinə” necə çevrildi. Cavab isə bir o qədər də dərində deyilmiş...

### Çörçill Ruzvelti necə yola gətirdi?

İkinci Dünya Müharibəsi təzə qızışırdı. Artıq Almaniya SSRİ-yə qarşı müharibə aparırdı və 1941-ci ilin avqust ayında ABŞ Prezidenti Franklin Ruzvelt Britaniyanın lideri Uinston Çörçillə görüşdə təklif edir ki, İkinci Dünya Müharibəsindən sonra güclü dövlətlərdən ibarət yeni beynəlxalq qurum yaradılmalıdır və həmin qurum “dünya polisi” funksiyalarını yerinə yetirməlidir. Müharibənin gedişi və yaponların ABŞ-ın hərbi bazası olan Perl-Harbora hücumundan sonra Teodor Ruzvelt öz təklifini daha da təkmilləşdirərək, onu “Dörd Polis” konsepsiyasına çevirir. Konsepsiyanın əsas ideyası onda idi ki, “Dörd Böyüklər”, yəni ABŞ, Britaniya, SSRİ və Çin bütün dünyanın nəzarət dairələrinə bölməklə məsuliyyət daşıdıqları ərazilər üzrə təhlükəsizliyin təminatı funksiyalarını həyata keçirirlər.

Sonralar məhz bu konsepsiya BMT və onun Təhlükəsizlik Şurasının yaradılması üçün əsasa çevrildi. BMT-nin yaradılmasına dair ilk qərarlar 1944-cü ilin avqustun 21-dən oktyabrın 7-dək davam edən “Beynəlxalq Sülhün və Təhlükəsizliyin Təşkilinə dair Vaşinqton Danışıqları” zamanı müzakirə edilib təsdiq olunmuşdu.

Fikir versək, Fransa bu proseslərin heç birinə cəlb olunmamışdı. Lakin 25 avqust



MONSIEUR JOURDAN
LE BOTANISTE PARISIEN DANS LE KARABAGH
Et le derviche MEST ALI CHAH
CÉLÈBRE MAGICIEN
COMÉDIE EN QUATRE ACTES
DE
MIRZA FETH ALI AKHONDZADE
TRADUITE DU TURC AZERI
PAR
LUCIEN BOUVAT
PARIS
ERNEST LEROUX ÉDITEUR
28, RUE BONAPARTE, 28
1906

1944-cü ildə Paris nasistlərdən azad olunduqdan sonra Çörçill yeni yaranacaq BMT Təhlükəsizlik Şurasının daimi üzvləri sırasına Fransanın daxil edilməsinə dair bu təşəbbüsün qəti əleyhdarı olan Ruzveltə təzyiqlər etməyə başlayır. Uzun və yorucu danışıqlardan sonra ABŞ Fransanın da TŞ daimi üzvləri siyahısına daxil edilməsinə qismən razılıq verir, lakin Fransa BMT-in yaradılmasına dair heç bir proseslərə cəlb edilmir.

### Uinstonun anası Cenni Spenser Çörçill ABŞ-ın tanınmış Fransa mənşəli maliyyəçisi Leonard Valter Jeromenin qızı idi

Və indi də gəlirik əsas məsələyə, yəni Çörçillin Fransanı bu qədər sevməyinin səbəblərinə. Səbəblər isə çox adidir. Belə ki, Uinstonun anası Cenni Spenser Çörçill ABŞ-ın tanınmış Fransa mənşəli maliyyəçisi Leonard Valter Jeromenin qızı idi. Jeromenin kökü fransız huqenotlarından gəlir və bu tayfanın ilk nümayəndələri ABŞ-a hələ 1717-ci ildə mühacirət etmişdilər və ata tərəfdən isə onun hətta Corc Vaşinqtona da qohumluğu çatır.

Uzun sözün qısası, anasını sevən Uinston Fransa tarixinə və mədəniyyətinə daima böyük sevgi bəxş edirdi və o səbəbdən hesab edirdi ki, Fransaya mütləq böyük dövlət statusu verilməlidir. Beləliklə də, Çörçillin anasına olan sevgisi bütün dünyanı bax beləcə Fransanın yekəbaşlığı qurbanına çevrib.

### Yaxşı ki Çörçillin anası erməni olmayıb, yoxsa dünya ümumiyyətlə, baş-ayaq dayanardı

Nəticədə, indi bu dövlət hesab edir ki, BMT TŞ-nın üzvü olaraq digər dövlətlərin daxili işinə qarışa, hansısa regionlardakı proseslərə müdaxilə edə bilər. Bir sözlə, Fransa sözlə layiq olmadığı və sırf təsadüf nəticəsində əldə etdiyi səlahiyyətlərindən sui-istifadə etməklə məşğuldur. Özü də Fransanın ona hədiyyə edilən TŞ-dakı yerindən səmərəsiz istifadə etdiyini bütün dünya şox yaxşı görür və dərk edir. Əbəs yerə deyil ki, hələ 2018-ci ilin noyabrında Almaniyanın maliyyə naziri Olaf Şolts Fransaya təklif etmişdi ki, Paris TŞ-dəki öz yerini Avropa İttifaqına versin ki, Avropa İttifaqı beynəlxalq müzakirələrdə daha fəal iştirak etsin. Lakin fransızlar böyük hay-küy, əsl fransızsayağı şivənlər qaldıraraq guya bunun mümkün olmadığını deyib, almaniyalı nazirin, əslində, münbit olan təklifi rədd etdilər.

Və baxın, indi Ermənistan bizi, regionda söz sahibinə çevrilmiş Azərbaycanı bu əhəmiyyətsiz və nüfuzsuz bir dövlətlə qorxudur. Nə deyək, yaxşı ki Çörçillin anası erməni olmayıb, yoxsa dünya ümumiyyətlə baş-ayaq dayanardı. Necə deyərlər, Allah dünyanın üzünə baxıb və Çörçillin anasını fransız edib...

*Aydınoğlu,*
*Rövşən NURƏDDİNOĞLU*

## Sabiq erməni prezidentləri arasında ən “uzaqgörən siyasətçi”...

Məlum olduğu kimi, Ermənistanda parlament seçkilərinə sayılı günlər qalır. Doğrudur, bəzi istisnalara baxmayaraq, hazırda ölkədə rəsmi olaraq seçki kampaniyası başlamasa da, amma keçmiş prezident Robert Koçaryanın komandası, artıq “qələbə”sini qeyd etməyə hazırlaşır. Məsələ bundadır ki, bu gün Koçaryanın ofisinin rəhbəri Viktor Soqomonyan “böyük əminliklə” qarşıdakı seçkilərdə qalib kimi, Nikol və onun komandasının erməni parlamentindən qovacaqların bildirir. Özü də böyük əminliklə...



Bu gün Nikolun yenidən xalqa yalanlar vəd edib hakimiyyətdə qalacağını deyən bəzi ermənilər, Soqomonyana görə, sadəcə olaraq, erməni xalqına hörmət etməyən insanlardırlar. Ofis rəhbərinin fikrincə, əgər sabah “nikolsevərlər” hər hansı bir prinsiplərdən çıxış edərək yenidən Paşinyana səs versələr belə, Nikolun seçkiləri qazanmaq şansı yoxdur.

Soqomonyan, Koçaryanın rəhbərlik etdiyi “Hayastan” blokunun heç bir halda Paşinyan və onu dəstəkləyən qüvvələrlə əməkdaşlıq etməyəcəyini də bildirib. Qeyd edək ki, Soqomonyan təmsil etdiyi blokun seçkilərə qatılacaq hökumət əleyhinə qüvvələrdən hər hansı biri ilə koalisiya qurulması mümkünlüyünü də istisna etməyib. Soqomonyan bunun əsas fərqlərin olmayacağı təqdirdə baş tuta biləcəyini bildirir.

Qabaqdangəlmişlik edib, parlamentdəki gələcək vəziyyətdən danışan Soqomonyan, seçki kampaniyasının hələ başlamadığını, buna görə də indi hər hansı bir proqnoz verməyin çətin olduğunu qeyd edib. Buna baxmayaraq, o, Paşinyanın parlamentə girəcəyi təqdirdə belə, onun yeni hökumət formalaşdırmaqda çətinlik çəkəcəyini də bildirib.

Yeri gəlmişkən, “Robert səlahiyyətlisi” Nikol Paşinyanın bir müddət bundan əvvəl Levon Ter-Petrosyan və Robert Koçaryanı teledebata çağırışına da münasibət bildirib.

Belə görünür ki, Koçaryanı “siyasətçi kimi” “göylərə qaldırmağa” çalışan ofis rəhbəri, nədənsə, “təbliğ” etdiyi rəhbərinin hazırda Ermənistanda elə də böyük bir imicə sahib olmadığını demir. Əksinə, sahibi ilə baş tutmayan teledebatın forma baxımından maraqlı ola biləcəyini gizlətməsə də, amma Köçəryanın “uğursuz bir adamla”, yəni Paşinyanla müzakirəyə vaxt sərf etməsini “münasib bilmir”.

...Deməli, Soqomonyanın dediklərindən bu qənaətə gəlmək olur ki, Robert Koçaryan erməni xalqı üçün “Tanrının bəxş etdiyi ən ümdə vergi”lərdən biridir. Qeyd edim ki, Soqomonyan bunu havadan demir a.., əlində daşdan keçən “sübutlar” da var. Məsələn, Soqomonyanın dediyinə görə, Koçaryan hakimiyyətdə olduğu 10 il ərzində (1998 -2008-ci illər) Ermənistanın “hərbi qüdrətini” “göylərə” qaldırıb. Məhz, elə Robertin hakimiyyətdə olduğu illərdə bütün qonşu dövlətlər ermənilərə “həsəd aparırmış”. Təsəvvür edirsinizmi, Robertin prezidentlik müddətinin bitməsindən bir il sonra belə, Ermənistan hərbi-texniki baxımdan Azərbaycanı üstələyirmiş.

...Soqomonyan Serj Sarkisyandan “ayıb olar” deyə, bəzi nüansları dilə gətirməsə də, amma o, ermənilərin silah-sursat arsenalındakı tarazlığın, məhz Serjin vaxtından başlayaraq əyilməyə doğru getdiyini eyhamla da olsa bildirir.

...Belə başa düşülür ki, Ermənistan prezidentləri arasında Serj Sarkisyanla müqayisədə Robert Koçaryan daha “uzaqgörən siyasətçi” olub deyə, bu da seçki vaxtı seçicilərin nəzərindən qaçmamalıdır.

***Ağasəf Babayev***



# Qadını naqillə boğub öldürən şəxs tutulub

Prokurorluq və polis əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Sabunçu rayonu ərazisində qeyri-aşkar şəraitdə törədilmiş ağır cinayətin açılması təmin edilib. Baş Prokurorluq və Daxili İşlər Nazirliyindən SİA-ya verilən birgə məlumata görə, mayın 31-də saat 13 radələrində Sabunçu rayonu, Bakıxanov qəsəbəsində yaşayan 1990-cı il təvəllüdlü Cəfərova Turanə İldırım qızının üzərində xəsarət izləri olan meyitinin yaşadığı evdə aşkar edilməsi faktı ilə bağlı Sabunçu rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmışdır.

İstintaqla müəyyən edilmişdir ki, zərərçəkmişin tanışı Əlizadə Eynur Əfqan oğlu şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı Turanə Cəfərovanı sərinkeşin elektrik naqili ilə boğaraq qəsdən öldürüb. Eynur Əlizadə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

| | | | |
|---|---|---|---|
| " Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin | | | |
| Mühasibat Balansı | | | |
| 31 dekabr 2020-ci il tarixinə | | | |
| *Azərbaycan Manatı ilə məbləğlər tam məbləğə qədər yuvarlaqlaşdırılıb* | | | |
| | Qeyd | 2020 | 2019 |
| **AKTİVLƏR** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Torpaq, tikili və avadanlıqlar | | 2.007.374 | 2.061.832 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | ***2.007.374*** | ***2.061.832*** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | | 561.751 | 553.967 |
| Qısamüddətli debitor borcları | | 613.091 | 1.892.775 |
| Digər qısamüddətli debitor borclar | | 0 | 82.553 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 3.925.003 | 1.208.053 |
| Sair qısamüddətli aktivlər | | 26.109 | 235.376 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | ***5.125.953*** | ***3.972.725*** |
| **CƏMİ AKTİVLƏR** | | **7.133.327** | **6.034.557** |
| **KAPİTAL** | | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapitalı | | 1.903.032 | 1.903.032 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 2.878.703 | 2.019.674 |
| Əlavə kapital | | 2.108.236 | 2.108.236 |
| **CƏMİ KAPİTAL** | | **6.889.972** | **6.030.942** |
| **ÖHDƏLİKLƏR** | | | |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Qısamüddətli kreditor borcları | | 4.273 | 3.615 |
| Vergi və sair məcburi ödənişlər üzrə borclar | | 239.083 | 0 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | ***243.356*** | ***3.615*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **243.356** | **3.615** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **7.133.328** | **6.034.557** |

| | | | |
|---|---|---|---|
| " Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin | | | |
| **MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HESABATI (xərclərin xüsusiyyəti üzrə)** | | | |
| 31 dekabr 2020-ci il tarixinə | | | |
| *Azərbaycan Manatı ilə* | | | |
| | Qeyd | 2020 | 2019 |
| Əsas əməliyyat gəliri | | 5.224.980 | 4.597.431 |
| Satışın maya dəyəri | | (608.445) | (1.138.456) |
| **Ümumi mənfəət** | | **4.616.534** | **3.458.975** |
| Sair əməliyyat gəlirləri | | 0 | 847 |
| Sair əməliyyat xərcləri | | 0 | -126 |
| Maliyyə gəlirləri | | 68.175 | 72.000 |
| Maliyyə xərcləri | | | |
| Ümumi və administrativ xərclər | | (1.341.296) | (1.247.103) |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **3.343.413** | **2.284.594** |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **3.343.413** | **2.284.594** |
| Mənfəət vergisi | | (684.383) | (472.734) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **2.659.030** | **1.811.860** |

| | | |
|---|---|---|
| " Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin | | |
| **PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI** | | |
| **31 dekabr 2020-ci il tarixinə** | | |
| | **2020** | **2019** |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Xalis mənfəət /(zərər) | 2.659.030 | 1.811.860 |
| İnvestisiya və maliyyələşmə fəaliyyətində aid olanlar | | -808 |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər (amortizasiya) | 74.418 | 66.750 |
| Dövriyyə kapitalında dəyişikliklər: | | |
| Ehtiyatlar üzrə (artım)/azalma | (7.784) | (5.072) |
| Əməliyyat debitor borclarında və gələcək dövrün xərclərində (artım)/azalma | 1.279.684 | (632.607) |
| Digər debitor borclaında (artım)/azalma | 82.553 | 82.542 |
| Sair qısamüddətli aktivlərdə (artım)/azalma | 209.268 | 44.075 |
| Əməliyyat kreditor borclarında artım/(azalma) | 658 | 612 |
| Vergi və sair məcburi ödənişlər üzrə artım | 239.083 | -9 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **4.536.911** | **1.367.343** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Uzunmüddətli maddi və qeyri maddi aktivlərin əldə edilməsi | (19.960) | (35.831) |
| Əsas vəsaitlərin təqdim edilməsindən gəlir | | 847 |
| Kapiatllaşdırmada olan aktivlərə çəkilmiş xərc | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(19.960)** | **(34.984)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Verilmiş dividendlər | (1.800.000) | (2.700.000) |
| Kapital ehtiyyatlarından istifadə | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | **(1.800.000)** | **(2.700.000)** |
| **Pul vəsaitlərinin və bank overdraftlarının xalis artması (azalması)** | **2.716.951** | **(1.367.642)** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | **1.208.053** | **2.575.695** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | **3.925.004** | **1.208.053** |

| | | | | |
|---|---|---|---|---|
| " Bakı Ağırlaşdırıcılar " Açıq Səhmdar Cəmiyyətinin | | | | |
| **KAPİTALDA DƏYİŞİKLİKLƏR HESABATI** | | | | |
| **31 dekabr 2020-ci il tarixinə** | | | | |
| *Azərbaycan Manatı ilə* | | | | |
| | **Nizamnamə Kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Əlavə kapital ehtiyyatları** | **Cəmi Kapital** |
| **01.01.2019-cu il tarixə qalıq** | **1.903.032** | **2.907.813** | **2.108.236** | **6.919.082** |
| 2019-ci il üzrə xalis mənfəət | | 1.811.860 | | 1.811.860 |
| Verilmiş dvidentlər | | (2.700.000) | | (2.700.000) |
| **31.12.2019-ci il tarixə qalıq** | **1.903.032** | **2.019.673** | **2.108.236** | **6.030.942** |
| 2020-ci il üzrə xalis mənfəət | | 2.659.030 | | 2.659.030 |
| Verilmiş dvidentlər | | (1.800.000) | | (1.800.000) |
| **31.12.2020-ci il tarixə qalıq** | **1.903.032** | **2.878.704** | **2.108.236** | **6.889.972** |

**SƏRBƏST AUDİTOR**
**ALIYEV KÖÇƏRİ ƏMRAH OĞLU**
**MÜSTƏQİL AUDİTORUN HESABATI (RƏY)**

AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI 1995

**"Bakı Ağırlaşdırıcılar" ASC-nin İdarə heyətinə**

Mən "**Bakı Ağırlaşdırıcılar**" ASC-nin 31 dekabr 2020-cı il tarixinə maliyyə vəziyyəti,mənfəət və zərər,məcmu gəlirlər , kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.
Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları ASC-nin 31 dekabr 2020-cı il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (*və ya düzgün və ədalətli təsəvvür yaradır*).
Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır. Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məsuliyyət daşıyır.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq ASC-dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik ASC-ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik ASC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər ASC-nin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Sərbəst auditor: K. Ə. Alıyev
Tarix: 07.04.2021

Sərbəst auditor
Independent auditor

M.Y.

Bakı şəhəri, Nizami küç. 102
Mob: (050) 372 18 53

# Ölən erməni əsgərlərinin qalıqları daha harada saxlanılır?

**Ölən erməni əsgərlərinin qalıqları Abovyanla yanaşı Ermənistanın Qeqarkunik bölgəsinin Martuni şəhər meyitxanasında da saxlanılır. SİA Ermənistana məxsus armenianrepot.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Martuni morqunun patoloqu Artaş Xaçatryan, bu barədə news.am saytına verdiyi müsahibədə bildirib.**

**"Müayinələr aparılır, cəsədlər soyuducuda saxlanılır", deyə morqunun patoloqu Artaş Xaçatryan məlumat verib. Xaçatryan cəsədlərin sayını açıqlamaqdan imtina edib.**



"Cəsədlər müharibə vaxtından günümüzə qədər müxtəlif vaxtlarda gətirilib. Məsələn, bu gün artıq üç cəsəd müəyyən edilib. Bu rəqəm hər gün artır. Çox sayda cəsəd var. Son qalıqlar Abovyanın meyitxanasından gətirilib", deyə patoloq bildirib.

Xatırladaq ki, bir neçə gündür internetdə Məhkəmə Tibbi Elmi və Praktik Mərkəzin Abovyan filialında erməni əsgərlərinin qalıqlarının döşəmə üzərində torbalarda necə atıldığını əks etdirən foto və videogörüntülər var. Bu fotoların həqiqiliyini Ermənistan Səhiyyə Naziri vəzifəsini icra edən Anahit Avanesyan da təsdiqləyib.

***İnam Hacıyev***

# Antimillilərin dəyişilməyən adları: Vicdanları da erməniləşən Sorosun uşaqları



***İkinci Qarabağ müharibəsində işğalçı Ermənistan üzərindəki Qələbəmizdən sevinənlər, xalqımızla həmrəyliyini, erməni vəhşilərinin torpaqlarımızda törətdikləri barbarlığı lənətləyənlər faşizmə nifrətlərini də bildirdilər. Respublika Günü münasibətilə Prezident İlham Əliyevə ünvanlanan təbrik məktublarının hər biri Azərbaycanla həmrəylik nümunəsidir.***

Beynəlxalq təşkilatları təmsil edən qonaqlar, media mənsubları öz ölkələrində Azərbaycanın işğaldan azad olunan ərazilərində gördükləri vəhşilikləri pisləməklə, ölkəmizdəki xalq-iqtidar birliyinin sarsılmazlığından, Milli Ordumuzun şücaətindən bəhs edərək onu da bildirirlər ki, arzumuz ermənilər tərəfindən viran qoyulan ərazilərin quruculuq işlərindən sonrakı görkəmini seyr etməkdir. Bu istək gəlişi gözəl sözlər deyil. Ermənistan quldurlarının dağıtdıqları ərazilərdə aparılan quruculuq işlərinin ahəngdarlığının, insanların doğma yurda bağlılığının şahidi olanlar, əhali ilə keçirdikləri görüşlərdə xalqımızın qurub-yaratmaq əzmini görənlər dağıntıları ilə qəlbləri sızıldadan o yerlərin iki ildən sonrakı görkəmini təsəvvürlərində canlandırırlar. Xariciləri bu yerlərə təkrar gəlməyə vadar edən yaxın müddətdə adına layiq cənnətməkan Qarabağın cah-cəlalını görməkdir.

İşğaldan azad olunmuş ərazilərdə-Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda və digər bölgələrdə həyata keçirilən yol-infrastruktur, enerji ilə təchizat məsələri ilə bağlı işlərin həllinə xüsusi diqqətin yetirilməsi, "ağıllı kənd", "ağıllı şəhər", "yaşıl enerji" kimi layihələrin reallaşması istiqamətində nəzərdə tutulan işlərə start verilməsi, xarici dövlətlərin quruculuq işlərində iştirakları ilə bağlı müraciətlərin davam etməsi sevindiricidir. Amma Azərbaycanla bağlı uğurları görəndə lal-kar olan radikallar, mühafizəkarların çirkab yuvası olan "Milli Şura"nın tör-töküntüləri işğaldan azad olunmuş torpaqlarımızdakı Böyük Qayıdışa hazırlıqları görməzdən gəlirlər. Xeyir sözləməz ağızlarına su alan səkkizayaqlı bu ohtapodların ( səkkizayaqlı ilbiz də deyilir) dili yalnız ermənilərlə bir olduqda açılır. Səkkizayaqlı sözünü təsadüfən işlətmədim. Çünki vicdanlarını pula satanlar qollarını yalnız dollar iyi gələn tərəfə uzadırlar. Yəni, kim onları öz tərəfinə çəksə, daha çox pul versə onların dili ilə danışırlar. Bir sözlə, vicdanları müxtəlif ölkələrdəki ağalarının dilənçilik tərəzilərində ölçülən antimillilər səmum yeli kimi istiqamətlərini də dörd cəhət üzrə deyil, sorossayağı sifarişlər üçün nəzərdə tutulan satqınlıq haqqına görə müəyyənləşdirirlər. Maraqlıdır, görəsən doğulub boya-başa çatdıqları torpaqlardakı bu uğurları görmək istəməyənləri lal-kar edən nədir?

Hakimiyyətdə olduqları dövrdə Azərbaycanı dağılmaq təhlükəsi ilə



üzləşdirən, ölkə iqtisadiyyatını şəxsi maraqları naminə çökdürən AXC-Müsavat cütlüyünün tör-töküntüləri xəyanətlərinə görə xəcalət çəkmək əvəzinə hələ də hakimiyyətə gəlmək istəklərindən əl çəkmirlər. Xalqımıza, torpaqlarımızın bütövlüyünə edilən xəyanətlər isə biri- birindən ağırdır. "Məhz o vaxt faktiki olaraq hakimiyyətə gəlmiş və bu gəlişini rəsmiləşdirmək istəyən AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa və Laçın işğal altına düşdü. Çünki onlar üçün hakimiyyətə gəlmək hər şeydən vacib idi. O vaxt müdafiə naziri onların adamı idi, hansı ki, söz vermişdi, əgər Şuşa əldən getsə, öz başına güllə çaxacaq. Bu günə qədər tula kimi orada-burada sülənir. Faktiki olaraq hakimiyyət Xalq Cəbhəsi-Müsavatın əlində idi. Onlar Şuşa və Laçını ermənilərə təhvil verərkən Bakıdakı hakimiyyəti yıxmaq istəmişdilər və buna nail oldular. Ondan bir ay keçəndən sonra hərbi çevriliş edərək, parlament binasını zəbt edərək hakimiyyəti devirdilər və qanunsuz olaraq hakimiyyətə gəldilər. Bu, onların böyük xəyanətidir. Ondan sonra nələr baş verdi? Ondan sonra ölkə faktiki olaraq idarəolunmaz vəziyyətə düşmüşdü. Xaos, anarxiya, özbaşınalıq, hərc-mərclik, talançılıq hökm sürürdü. Kəndlər işğal altına düşürdü, Xalq Cəbhəsi-Müsavat hakimiyyəti Ermənistana benzin satırdı. Özləri də bunu etiraf etmişdilər. Bu videomateriallar, kadrlar var. Özləri də etiraf etmişdilər ki, bu xəyanətin içindədirlər" söyləyən Prezident İlham Əliyevin sözləri onların xəyanətlərini tam xarakterizə edir.

Azərbaycana qarşı satqınlıqlarını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə qarşı təzyiqləri ilə başlayan milli xəyanətkarların bu əməlləri də səbəbsiz deyildi: Ermənilərin daha çox torpaq işğalına imkan yaratmaq. Azərbaycanın ayrılmaz hissəsi olan

Naxçıvanı Ermənistanın təcavüzündən qoruyan Ulu Öndərə qarşı fiziki təsir göstərmək üçün muxtar respublikaya hərbi desant göndərənlər bu gün xarici ağalarının göstərişi ilə Prezident İlham Əliyevə, Azərbaycan xalqına, Milli Ordumuza qarşı təxribatlarını davam etdirirlər.

Prezident İlham Əliyevin "Torpaqlar əldən gedir, ermənilər kəndlərimizi zəbt edir, onlar isə Naxçıvanda Heydər Əliyevə qarşı mübarizə aparırlar. Bunlar Xalq Cəbhəsi-Müsavat xəyanətkarlarının əməlləridir. Ancaq qorxdular, heç burunlarını soxa bilmədilər. Çünki xalq qalxdı, dedilər ki, gələn kimi sizi burada məhv edəcəyik. Vətəndaş müharibəsinə start verdilər, Gəncəni bombaladılar, Azərbaycan əsgərlərini əsir götürdülər, torpaqlar işğal altına düşədüşə. Bu, xəyanət deyil, bəs nədir?! 1993-cü ilin aprelində Kəlbəcəri düşmənə verdilər. Ondan sonra təşvişə düşdülər, qorxuya düşdülər, depressiyaya düşdülər. Bu günə qədər də bu depressiyadan çıxa bilmirlər" sözlərində

AXC-Müsavat cütlüyünün xəyanətlərinə dözməyən xalqın iradəsi əks olunub. Təbii ki, Kəlbəcəri, Şuşanı, Laçını, Ağdamı və başqa rayonları "yan"lara təhvil verən erməni düşüncəlilər bu gün xəyanətlərinin qurbanı olan ərazilərdə quruculuq işlərinin aparılmasını istəmirlər. Bu mənfur xislətlilər hətta Milli Ordumuzun uğurlara imza atdığı İkinci Qarabağ müharibəsi zamanında da Silahlı Qüvvələrimizlə bağlı təxribat xarakterli informasiyalar yayırdılar. Bir ağacda oturub min budağı silkələyən AXCP sədri Əli Kərimli və trolları, Sevinc Osmanqızı, Qənimət Zahid, "Milli Şura"nın başsız başbiləni Cəmil Həsənli kimi digər antimillilər də dəyişilməyən amplualarındadırlar. Təsəvvür edin: Amerikalı blogger Azərbaycanın işğaldan azad olunan ərazilərində gördüklərindən dəhşətə gəlir. Ağdamı, Füzulini quruculuq işlərindən sonrakı dövrdə görmək arzusunu dilə gətirir. Amma adı azərbaycanlı olub, vicdanı çirkaba bulaşanlar əksinə, ərazilərimizin abadlaşdırılmasından, Şuşanın, Ağdamın əvvəlkindən də gözəl olacağından narahatlıq keçirirlər. Xarici qonaqlar Ağdamı "Ruhlar şəhəri" adlandırırlar, Xirosima ilə müqayisə edirlər. Amma adı bizim olub xarici havadarlarına, daşnaklara nökərçilik edən milli satqınlarımız ermənilərə ünvanlanan sözlərdən narahatlıq keçirirlər. Sorosun çirkli pullarından bəhrələnən beləleri haqqında atalarımız deyib ki, elinə-obasına xor baxanların gözlərinə qan damar, onları torpaq da qəbul etməz. Heç etməyəcək də. Onlar unudublar ki, Vətən xalqın beşiyi, qidası, anası və son mənzilidir. "Milli ruhun canlanmışı insana Vətəni sevdirir" kəlamı da ən uca mənəvi rütbə olan vətənpərvərlik duyğularından məhrumlar üçün yaddır. "Müdrik əcdadlarımızdan miras qalmış üç şeyi sizə vəsiyyət edirəm: - ana dilimizi - vicdanımızı - Vətənimizi" söyləyən Şah İsmayıl Xətainin vəsiyyətlərindən dərs almayanlar doğma torpağa, milli mənsubluğa sahiblik hissindən əbədilik məhrum olanlar Vətənə oğulluq etmək duyğularından da məhrumdurlar.

***Xuraman İsmayılqızı***

## Koçaryan: "Abovyandakı cəsədlər sadəcə rüsvayçılıqdır"

Abovyanda gördüklərimiz cəsədlər sadəcə bir rüsvayçılıq, bir xəcalətdir. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri "Ermənistan" blokuna rəhbərlik edən Ermənistanın ikinci prezidenti Robert Koçaryan İrəvanın iki rayonunun sakinləri və qərargahının nümayəndələri ilə görüşündə söyləyib.



"Bilirsinizmi ki, hələ də II Dünya Müharibəsinin izlərini araşdıran və qalıqları müəyyənləşdirən, DNT-ni identifikasiya edən, yaxınlarını, vətəndaşlarını tapan və sonra hərbi şərəflə dəfn edən dövlətlər var? Dövlət öz əsgərinə hörmət bəsləyir. Amma burada, Ermənistanda nə edirlər?

Əsgərlərin qalıqları hara gəldi atılıb və utanmadan soyuducu düzəldəcəklərini söyləyirlər. Yeddi aydır soyuducu düzəldirlər? Bunun öhdəsindən gələ bilmirlərsə, ölkənin qayğısına qala bilərlərmi? Bu çəkilişlərə baxanda öz dövlətimə görə, Ermənistana görə böyük bir utanc hissi, xəcalət hissi yaşadım, xəcalət çəkdim", deyə Robert Koçaryan bildirib.

Xatırladaq ki, son günlər mediada, xüsusən Ermənistan mətbuatında, eləcə də sosial şəbəkələrin erməni seqmentində ölmüş erməni hərbçilərinin, erməni əsilli əsgərlərin cəsədlərinin qalıqlarının polietilen torbalarda meyitxalanalara atıldığını əks etdirən foto və video görüntülər yayılıb. Bu da erməni cəmiyyətində rezonans doğurub. Hətta buna görə etiraz aksiyaları da keçirilir.

***İnam Hacıyev***

## "Ermənistan Fransa üçün bir alətdir"

Ermənistanda seçki kampaniyasının əsas hissəsi ya Azərbaycanla sərhədlərdə, ya da Fransada, Belçikada, Avropada, xaricdə aparılır və bu onu göstərir ki, Ermənistan yenə də dəstək qazanmaq üçün hansısa ölkələrin diqqətini cəlb etmək istəyir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli



Məclisin deputatı Asim Mollazadə deyib.

Millət vəkili qeyd edib ki, Nikol Paşinyanın əleyhinə olan daşnaqlar da öz kampaniyalarını Fransada aparırlar, etiraz aksiyaları keçirirlər və bu onların siyasi kampaniya üsullarıdır.

"Fransa və Makronun siyasəti hansısa formada bizim bölgədə öz mövcudluğunu qoruyub saxlamaqdır və Ermənistan da onlar üçün bir alətdir. Fransa tərəfkeş olduğuna görə, Azərbaycan artıq bu ölkəni heç bir halda sülhməramlı bir nümayəndə kimi görmək istəmir və ona görə də Fransa Ermənistanla öz münasibətlərini daha da gücləndirməklə, Ermənistan vasitəsilə hansısa formada bölgədə mövcudluğunu qorumaq istəyir. lakin mənə elə gəlir ki, Fransa əslində bu cür siyasətlə, eyni zamanda Azərbaycana qarşı müvafiq addımları atmaqla, bu ölkə rəhbərliyində islamafobiyanın aparıcı bir fikir olduğunu nümayiş etdirir və ölkənin daxilində artıq çox ciddi xoşagəlməz istiqamətlərdə proseslər inkişaf edir.

Rasizmin, ksenofobiyanın, antisemitizmin artmağı Fransa cəmiyyətini çox ağır vəziyyətə gətirdi və mənə elə gəlir ki, bu, ən böyük səhv addımların olması sosial etirazlarla yanaşı, məhz bu istiqamətdə də etirazları artırır. Daşnakların Paşinyana qarşı olan etirazları bu siyasətin nəticəsində hətta erməni icmasında da müvafiq parçalanmalara gətirib çıxardı", deyə Asim Mollazadə bildirib.

# Ermənniləşən fransızın kaputulyant sevgisi



Nikol Paşinyanın Parisə gözlənilən səfəri barədə məlumat 2 həftə əvvəl ortaya çıxanda və bu barədə telegram kanallarından biri baş nazir vəzifəsini icra edən bu adamın ad gününü orada qeyd etmək niyyətində olduğunu bildirəndə bu xəbər o qədər gülünc göründü ki, hamı bunun saxta olduğu qənaətində idi. Üstəlik, nəzərə alsaq ki, Fransanın bir sıra mənbələri prezident Makronun dəvəti faktını da uzun müddət təsdiqləmədiyi məsələsi Nicolun, 1 iyun tarixində Parisə və Brüsselə səfər edərəcəyi qədər axmaqlıq və səviyyəsizlik dərəcəsini, Makronun isə buna rəvac verəcək qədər yaltaqlığını təsəvvür belə etmək kimsənin ağlına gəlmirdi.

Son bir neçə gündə Fransada yaşayan erməni diasporu dairələrindən yüzlərlə ermənninin Makrona kapitulyatorla görüşməməyi və onunla birgə mətbuat konfransı keçirməməyi xahiş etdiyi barədə xəbərlər bu ölkə gündəmini zəbt etsə də bunun əksi müşadə edildi. Hətta Fransanın Erməni Təşkilatları Koordinasiya Şurasının sədri Murad Papazyan yerkir.am saytına verdiyi müsahibədə sensasiyalı bir açıqlama verərkən bildirib ki, Emmanuel Makron, səfərə seçki xarakteri verməmək üçün Paşinyana oktyabr ayından, yəni seçkilərdən sonra gəlməsini təklif edib. Ancaq buna məhəl qoymaması təsdiq edir ki, Paşinyan üçün yalnız, "erməni xalqına Fransa prezidenti ilə hələ də asanlıqla görüşə biləcəyini göstərmək" kimi bir şey vacib idi. Nikolun buna nail olmasına Makron münbit şərait yaratdısa, buna nə ad vermək olar? Bu, artıq ermənniləşən Makronun kapitulyant sevgisi deyilmi?

Təbii ki, Ermənistanın təhlükə altında olduğu halda, Nikolun sırf daxili seçkiqabağı məqsədlərlə xaricə getməsi, Makronla şəkil çəkdirmək arzusu, istəyi qəbuledilməzdir. Belə qəbuledilməz davranışları Paşinyanın qəbul etdiyinin dəfələrlə şahidi olmuşuq və sanki, erməni cəmiyyətində belə bu bir o qədər təəccüb doğrmur, lakin Fransa prezidentinin bu məsələdə əlbir olması erməniləri belə qıcıqlandırdı. Yəni, Makronun ermənilərə olan yaltaqlığı, kapitulyant sevgisi elə bir həddə çatdı ki, ermənilərin özlərində belə ikrah doğurdu. Soyuducularda saxlanan erməni hərbçilərin cəsədlərini ən azından torpağa basdırmaq əvəzinə Parisə gedib Makronla şəkil çəkdirmək, şərabdan içib keflənmək, şənlənmək Paşinyan üçün ar hesab olunmadığı kimi, görünür Makron üçün də bu adi hal sayılırmış.

Paşinyan bu həqiqətən yersiz və gülünc ziyarətə niyə bu qədər ehtiyac duydu? Onun bu məsələ ilə əlaqədar açıqlaması olacaqmı? Abovyan morqunun döşəməsində tərk edilmiş, altı aydır heç kimin vecinə olmayan erməni hərbi qulluqçularının qalıqları olan plastik torbalar barədə məlumat ölkəni çox sarsıtğı bir vaxtda bu görüşə Nikol hansı dönu geyindirəcək? Suallar həddindən artıq çoxdur, amma baş nazir vəzifəsini icra edən bu adam deyəsən bunun fərqində belə deyil. Heç şübhəsiz ki, minlərlə erməni hərbçisinin ölümünü vecinə almayan biri yüzlərlə cəsədin meyitxanada, soyuducuda saxlanmasına görə, yaxud bu faktların üzə çıxdığı zamanda Makronla kef məclisinə, ad günü zövqünü almağa Fransaya getdiyinə görə vicdan əzabı çəkəcək görünmür. Sosial şəbəkələrin erməni seqmenti də belə bu fikirdədir və Nikoldan bu mərifəti, qanacağı gözləyən də yoxdur.

Hər bir halda, Nikol üçün çox arzuladığı görüş, Makron ilə görüş və ardınca da mətbuat konfransı baş tutdu. Amma sual yaranır ki, görəsən bəs Fransa prezidenti təcili səfərin seçkiqabağı kontekstini mükəmməl dərk edərək və özü də erməni mənşəli öz vətəndaşlarının istəklərini dinləmədən niyə onun istəyinə tabe oldu? Görəsən, Makron Paşinyandan, yaxud Fransa Ermənistandan asılı deyil? Bəli, bu fikirlərin heç biri məntiqi səslənmir, amma hansısa bir məntiqdən xəbər verir və suallar doğurur ki, bəs Makron niyə Paşinyana belə "sevgi" bəsləyir?

Doğrudur, Emmanuel Makronun sevgisi də, onun nifrəti də heç kimə lazım deyil və bu "sevgi" onun özünə, uzaq başı Paşinyana qalsın. Yəni, belə bir ikiüzlünün, simasızın ikiüzlü sevgisi başına dəysin və kimsəyə də lazım deyil, Paşinyan kimi səviyyəsizdən başqa. Amma, ən azından ədalət prinsplərinə, beynəlxalq normalara, beynəlxalq hüquqa, qərar və qətnamələrə kim olmasından asılı olmayaraq o da riayət etməlidir, buna borcludur. Özü də bir ATƏT həmsədr ölkələrindən birinin prezidenti olaraq daha çox borcludur. Təəssüf ki, biz də, dünya ictimaiyyəti də bunun əksini müşahidə edir.

Fransa prezidenti hərbi əməliyyatlar bitdikdən sonra təxribat törətmək niyyətində olan və tutulan erməni terrorçularını, təxribatçılarını hərbi əsir adlandırır, onların qaytarılmasını istəyir və buna görə utanmır. Hərbi əməliyyatlar bitdikdən sonra tutulan ermənilərə hansı üzlə hərbi əsir deyir Makron? Ondan sual oluna bilər ki, axı hərbi əməliyyatlar bitdikdən, baş nazirləri tərəfindən təslim, kapitulyasiya sənədi imzalandıqdan sonra erməni yaraqlıları Azərbaycan ərazilərində nə gəzirdi və bu hərbi əməliyyatdırmı? Məgər bu yekəlikdə ölkənin özünü yekə hesab edən prezidenti bunu dərk etmir? Əlbəttə dərk edir, sadəcə erməni, ələlxüsus kapitulyant sevgisindən dolayı özünü qanmazlığa vurur.

Makron bir tərəfdən də Ermənistan torpaqlarından Azərbaycan əsgərlərinin çıxarılması təlibi ilə çıxış edir. Maraqlıdır, Azərbaycan əsgərini Ermənistan torpağında hesab edirmi Makron? İşğaldan azad etdiyi torpaqlarda Azərbaycan əsgərinə Ermənistan ərazisindən çıxmaq tələbi, yaxud lap elə təklifi belə nə deməkdir? Bu, ATƏT həmsədr ölkəsi prezidentinin Qarabağ ərazisini Ermənistan torpağı hesab etdiyini etiraf etməsi deyilmi? Budurmu Fransanın ədalətli yanaşması, münaqişənin ədalətli həllinə çalışması? Fransa 30 ilə yaxın müddətdə bunu istəyibmi, yaxud tərəflər bunu gözləyibmi Fransadan, onun prezidentindən? Yaranan sualların sayı-hesabı yoxdur, amma çətin ki, Makron buna cavab vermək fikrində ola. Çünki, onun gözlərini kapitulyant sevgisi, ermənilərə olan yaltaqlığı tutub.

Görəsən, dırnaqarası "Erməni Soyqırımı" Fransa prezidentinin ağlına hardan gəlib? Ermənilərin qırğınını görüb, yoxsa bu uydurma tarixdə yanlarında olub? Bəlkə, uydurma "erməni tarixinə" əmindir? Tutaq ki, ermənilərə, onların uydurduqları tarixə inanır və buna görə belə qənaətdədir. Bəs, sual olunur ki, Makron son illər ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşilikləri, Xocalı kimi soyqırımı, erməni vandallıqlarını axı öz gözləri ilə görüb və onlara niyə inanmır? Tutaq ki, ötən əsrin sonlarında, yəni, 30 il bundan əvvəl, prezident olmaması, yaxud hansısa səbəblərdən bunu görməmişdi və bilməyib, yaxud fərqində deyil. Bəs 44 günlük müharibə dönəmində ermənilərin Gəncə, Bərdə, Tərtər kimi Azərbaycanın dinc yaşayış məntəqələrini, cəbhədən uzaq şəhərlərini qadağan edilmiş raketlərdən atəşə tutmasını, bu səbəbdən bir neçəsi körpə olmaqla, yüzlərlə mülki insan tələfatını da görmədimi Makron? Bu terror, soyqırım deyilmi? Buna Makron niyə reaksiya vermədi?

Digər tərəfdən, Fransanın özünün müstəmləkəçilik siyasəti dünya üçün sirr deyil və törətdikləri soyqırımlar barədə də kifayət qədər məlumatlar var. Tarixi keçmişləri bir tərəfə qoyaq, son dövrlərdə Ruandada törətdiklərini unudubmu Makron? Unutmayıb. Əks halda Ruandanın paytaxtı Kiqalidə 250 mindən çox tutsinin dəfn olunduğu soyqırımı abidəsinin qarşısında çıxış edən Emmanuel Makron soyqırımına görə Ruanda xalqından üzr istəməzdi. Bəli, Ruanda dəfələrlə Fransanı 800 min tutsi və hutunun ölümünə səbəb olan soyqırımında günahlandırmaqda haqlıdır. Bu baxımdan Makronun Ruanda ilə bağlı soyqırım etirafları anlaşılandır. Sadəcə o anlaşılan deyil ki, öz ölkəsini, Fransanı belə soyqırımda günahlandıran, buna görə Ruanda xalqından üzr istəyən Makron, nədənsə erməniləri, Ermənistanı qəti şəkildə günahkar adlandırmır, əksinə, həyasızcasına tərəfini tutur. Bax buna ermənniləşən fransızın erməni, kapitulyant sevgisindən, yaltaqlığından başqa nə ad vermək olar?

*İnam Hacıyev*



# Dünyanın ən "uğurlu sülhməramlıları"...

**...Deməli, bu günlərdə Parisə səfər edən Nikol Paşinyan oradakı erməni icmasının nümayəndələri ilə görüş keçirib. Görüşdə, Paşinyan 44 günlük müharibəni dayandıran 9 noyabr sənədinin, əslində, problemi həll etməyəcəyini, əksinə, "süründürmə prosesinə" yol açacağını bildirib.**

Maraqlıdır ki, erməni saytları Nikolun "süründürmə prosesi" deməklə nəyə nail olmaq istədiyini bilmədiklərini etiraf etsələr də, amma onun təslim olmaq məcburiyyətində qaldığına əminlik nümayiş etdirirlər. Onların ehtimalına görə, Rusiya artıq Ermənistanı parçalamaq və bu ölkənin "suverenliyini ləğv etmək" istiqamətində həlledici mərhələyə qədəm qoymaqdadır. Amma bütün bunlara baxnayaraq, Nikol da az qala bu sənəddə "təslimçiliklə" bağlı elə də bir "eyham" belə olmadığını deməkdə davam edir.

Doğrudan da, əgər belədirsə, bəs onda ermənilər niyə "sinələrini açıb, yaxalarını cırırlar". Məsələn, o gün "erməniləri bundan sonra da ehtiyatlı olmağa səsləyən", politoloq Aqasi Yenokyan üçtərəfli 9 noyabr sənədini Nikol tərəfindən ermənilərə qarşı xəyanət kimi dəyərləndirib. Özü də, davam etdirilən xəyanət kimi... Onun fikrincə, "9 noyabr sənədi və bu sənədlər Nikol üçün xəyanətlə yazılmış sübutlardır".

Amma Paşinyan başqa şey deyir. O deyir ki, 9 noyabr sənədi təslim sənədi deyil, sadəcə olaraq, müvəqqəti "geri çəkilmə" sənədidir. Ermənilər isə soruşurlar ki, əgər bu doğrudan da, təslim sənədi deyilsə, bəs onda niyə Rusiya hərbi varlığını Sünikdən Tavuş və Gümrüyə qədər olan cəbhə xəttinin formalaşmasını nəzərdə tutan - Ermənistan əraziləri və suverenliyi hesabına reallaşdırır?

Belə başa düşülür ki, ermənilər öz xilaskarları olan ruslardan yenə də narazıdırlar. Bundan əlavə, ermənilər ruslardan başqa bir şeydə də narazıdırlar: "Azərbaycanın özbaşnalığından". Guya Bakı mütəmadi olaraq, "erməni ərazilərinə hərbi basqınlar" etsələr də, amma ruslar buna münasibət bildirmirlər. Təbii ki, erməniləri "narazılıqları sadalamaqla tükənmir"...

Maraqlıdır ki, ötən gün erməni saytlarına danışan rusiyalı şərqşünas Aleksey Malaşenko Ermənistanla Azərbaycan arasındakı hazırkı gərginlikdə Kremlin kimsəni incitməmək mövqeyi nümayiş etdirdiyini bildirib. Rus şərqşünasa görə, əgər bu gün tərəflər arasında qarşıdurma varsa, Rusiyanın da varlığı var. Buna görə, Rusiyanın həm Cənubi Qafqazdakı varlığına, həm də Ermənistanla Azərbaycan arasındakı münaqişəyə ehtiyac var(?).

Maraqlıdır ki, rusları dünyanın ən "uğurlu bir sülhməramlı"sı kimi xarakterizə edən Malaşenko, qəribə də olsa, "əgər iki ölkə arsında hər hansı bir qarşıdurmanın baş verməyəcəyi təqdirdə, Rusiyanın bu bölgədə qətiyyən heç bir işi olmayacaq"-deyə bildirir.

...Sizi bilmirəm, amma mən buna çox inanmaq istərdim...

*Ağasəf Babayev*

# "Ermənistan cəmiyyəti də dərk edir ki..."

**"Ermənistanda növbədənkənar parlament seçkiləri öncəsi müxalifətin hakimiyyətə qarşı aksiyaları durmadan davam edir". Bu sözləri SİA-ya açıqlamasında beynəlxalq ekspert Anar Əliyev deyib.**

Onun sözlərinə görə, bu fonda xüsusilə itkin düşmüş əsgərlərin valideyinlərinin hakimiyyətə və hakimiyyətin müxtəlif qollarına qarşı mitinqləri aksiyaları davam edir: "Hesab edirəm ki, bunun başlıca səbəbi Ermənistanda mövcud hakimiyyət funksiyalarını icra etməsində müəyyən problemlərin özünü göstərməsi ilə bağlıdır. Siyasi terminologiyada buna katelepsiya da deyilir. Katelepsiyanın mahiyyəti hakimiyyətin bütünlüklə və ya müxtəlif qollarda öz funksiyasını icra etməsində müəyyən qüsurların, problemlərin üzə çıxması ilə bağlıdır. Bu gün Ermənistanda tam siyasi katelepsiya baş alıb gedir. Ermənistanda hakimiyyət qolları mərkəzi hakimiyyətdən qaçma meyilləri kifayət qədər güclüdür. Eyni zamanda hakimiyyət qolları, baş nazirə tabe olmaqda da müəyyən problemlər artıq özünü göstərir. Ermənistan XİN rəhbərinin istefa verməsi, eyni zamanda Avropada səfərdə olarkən baş nazir müavininin Nikol Paşinyanın davranışları haqqında açıqlama verməsi, Müdafiə Nazirliyinin ümumi Ermənistan hökumətinin siyasətinə zidd fikirlər səsləndirməsi, Ermənistanda siyasi katelepsiyanın



baş alıb getdiyini sübut edir".

Ekspert həmçinin qeyd edib ki, bir neçə gün bundan əvvəl Abovyan şəhərinin morqunda bəzi məlumatlara görə, 300-ə yaxın erməni meyitinin morqda saxlanılması və valideyinlərinə bu barədə heç bir məlumat verməməsi, informasiyanın cəmiyyətə sızdırıldığı onu göstərir ki, Ermənistan hakimiyyəti hətta öz xalqına qarşı da belə vandal hərəkətləri etmək keyfiyyətlərinə sahibdir: "Baş verən hadisələr onu göstərir ki, artıq Ermənistan cəmiyyəti də dərk edir ki, bu proseslərdə Azərbaycan dövləti, Azərbaycan cəmiyyəti deyil, birbaşa Ermənistan hakimiyyəti mövcud, siyasi rejimi məsuliyyət daşıyır. Məhz mövcud hakimiyyət Ermənistan xalqına qarşı hətta əsgərlərin meyitlərinin gizlədilməsinə qədər gedə biləcək addımlara qadirdilər. Ermənistan cəmiyyətində qarşıdurmalar bundan sonda da inkişaf edəcək . Xüsusilə seçkilərin nəticələri açıqlanandan sonra Paşinyan və onun komandası əgər seçkidə qalib gəlsə vətəndaş müharibəsi daha da inkişaf edə bilər".

*Arzu Elsevərqızı*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

QARABAĞ AZƏRBAYCANDIR!

4 iyun

# Formula 1 Bakı Qran Prisinin proqramı açıqlandı



**Bakıda 4-6 iyun tarixlərində keçiriləcək Formula 1 Azərbaycan Qran Prisinin proqramı açıqlanıb. SİA-nın məlumatına görə, yarışın ilk günü F2 sərbəst yürüşü ilə başlanılacaq, ondan sonra isə F1 sərbəst yürüşü baş tutacaq. Günün ikinci yarısı F2 sıralama yarışı, onun ardınca isə F1 ikinci sərbəst yürüş keçiriləcək.**

Yarışın ikinci günü, yeni 5 iyunda günün əvvəlində F2 sprint yarışı, onun ardınca isə F1 üçüncü sərbəst yürüş keçiriləcək, günün ikinci yarısı isə F1 sıralama turu və F2 sprint yarışı baş tutacaq.

İyunun 6-da günə FIA Formula 2 yarışı ilə başlanılacaq, ardınca isə F1 pilotlarının təqdimatı keçiriləcək. Günün ikinci yarısı isə əsas F1 yarışına start veriləcək. Əsas yarışa start verilməzdən əvvəl Azərbaycan Dövlət Himni mərasimi keçiriləcək. Ondan sonra, saat 16:00-18:00 ərzində Formula 1 Azərbaycan Qran Prisi 2021 baş tutacaq və qalib müəyyən ediləcək.

***Aysel Məmmədova***

# Siqareti tərgitmək infarkt riskini minimuma endirir



Türk mütəxəssis Ayşegül Karalezli məsələ ilə bağlı məlumat verib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, siqareti tərgitdikdən 3-4 il sonra infarkt riski minimuma enir və bu səbəbdən də siqareti tərgitmək sağlamlıq üçün vacibdir. Ayşegül Karalezli sözlərinə belə davam edib: "Dünya Səhiyyə Təşkilatının bu il üçün "siqareti tərgitmək önəmlidir" adlı mövzusu təyin edilib. Bu çərçivədə siqareti tərgitmə, xəstəxanalarda xəstələrə lazımı dəstək verir".

Siqaretin ağciyər, sidik kisəsi, boğaz xərçəngi və iflic kimi bir çox xəstəliyə səbəb olduğunu bildirən Karalezli, onun bütün orqanlara zərər verdiyini də vurğulayıb.

***Lətifə Abdıyeva***

# Toylara icazə verilir? - ekspert aydınlıq gətirdi

"Əlbəttə ki, yoluxmaların sayının azalması sevindiricidir və eyni zamanda da həyat tərzimizi bir qədər fərqli təşkil etməyə imkan yaradır. lakin istənilən halda biz məsuliyyətimizi unutmamalıyıq. Çünki pandemiya bitməyib. Dünyanın elə ölkələri var ki, orada hələ də koronovirus güclü şəkildə davam edir və qapanmalar hökm sürür. Bütün bunlar sona çatmadıqca biz rahat ola bilmərik. lakin Azərbaycanda vəziyyət dövlətin nəzarəti altındadır. Yetərincə vaksinasiya prosesi həyata keçirilir". Bu sözləri SİA-ya açıqlamasında media eksperti Azər Həsrət deyib.



Onun sözlərinə görə, Azərbaycan ən intensiv şəkildə əhalini peyvənd edən dövlətlər arasındadır: "Üstəlik də insanlarımız əvvəlki dövrlərdən fərqli olaraq, indi daha məsuliyyətli davranırlar. Bu baxımdan toyların bərpa edilməsi üçün ilk addımları atmaq olar. Yay vaxtıdır və açıq havada məhdud sayda insanın iştirakı ilə bu cür məclislərin keçirilməsi ciddi bir problemə çevrilə bilməz. Bu baxımdan 50-100 nəfərlik açıq havada toyların məsafəli keçirilməsi problemin həllində rol oynayacaq. Nazirlər Kabineti yanında Operativ Qərargah bu məsələnin sağını-solunu düşünüb, təkliflərini irəli sürməlidir".

Sosioloq sözlərinə belə davam edib: "Ümumiyyətlə isə cəmiyyətdəki gərginliyi aradan qaldırmaq, insanlarda ruh düşkünlüyünü sıfırlamaq, normal həyata dönüşün əlamətlərini daha da çoxaltmaq üçün bu cür məclislərə yavaş-yavaş icazə vermək lazımdır. İndi ola bilər ki, intensiv yoluxmanın olduğu Bakı şəhərində buna icazə verilməsin. Çünki bildiyimiz kimi ən çox yoluxma Bakıdadır. Amma elə bölgələrimiz var ki, orada yoluxma həmişə aşağı olub və indinin özündə də yetərincə azdır. Bu ərazilərdə toyların keçirilməsi məqbul hesab edilə bilər".

"Əlbəttə ki, toy keçirənlər məsuliyyətli olmalıdır. Məclis baş tutarkən tibbi personalın orada yoxlamalar aparması vacibdir. Necə ki, adi supermarketə getdikdə səlahiyyətli şəxslər temperaturumuzu ölçürlər, əlimizi spirtləyirlər toylarda da həmçinin bunları etmək mütləqdir. Bu zaman yoluxma ehtimalı da minimuma endiriləcək. Bu baxımdan düşünürəm ki, yavaş-yavaş insanların psixologiyasının normala dönməsi məqsədi ilə toyların bərpa edilməsi üçün ilkin addımlar atılsın. Bütün yumşaldılmalar insanların əhval-ruhiyəsinə müsət təsir edir. Həmçinin, toy sənayesi ilə məşğul olanların da böyük əksəriyyəti bu saat çox çətin vəziyyətdədir. Yəni, oradan minlərlə insan çörəkpulu qazanırdı. Həmin insanlar pulsuz və işsiz qalıblar. İnsanlar çox ciddi problemlərlə üzədir. Məsələnin həm də bu tərəfini düşünərək, toylara icazə vermək mümkündür".

***Ayşən Vəli***

# 2700 il yaşı olan göl qapılarını turistlərə açdı

Türkiyənin Vanın Gürpınar əyalətində, Erek dağının ətəklərində 2500 m yüksəklikdə yerləşən "Keşiş Gölü", ətrafında rəngarəng çiçəklər açan yaşıllığa və təmiz havası olan təbiətə malikdir. SİA xarici mətbuata istinadən xəbər verir ki, bu göl e.ə 685-645-ci illərdə hökm sürən II Urartu kralı Rusanın dövründə Erek dağının ətəyindəki çay vadisini bağlayaraq əmələ gələrək, gözəl təbiəti ilə turistlərin diqqətini çəkib.

Tur operatoru Hakim Acar, havaların istiləşməsi səbəbi ilə bölgəyə səyahət təşkil etmək üçün böyük bir təklif aldıqlarını və bölgəyə 125 nəfərlik qrupla gəldiklərini söyləyib.



Keşiş gölünün Van ilə Gürpınar arasında təbii bir möcüzə olduğunu ifadə edən Hakim Acar bildirib ki, bu, bölgəyə təşkil etdiyimiz üçüncü turdur: "Təbiət həvəskarları ilə gəzintiyə çıxdıq və müxtəlif oyunlar oynayaraq əyləndik. Pandemiyadan sonra insanların tətil və səyahət vərdişləri dəyişib. İnsanlar təbiət turlarını çox sevir və onları qaydalara uyğun olaraq təbiət qoynunda vaxt keçirə biləcəkləri ərazilərə gətirdik".

# Ana və iki uşağı yanaraq öldü



Sabirabad rayonunun Zəngənə kəndində ümumi sahəsi 230 $m^2$ olan birmərtəbəli 4 otaq və aynabənddən ibarət evin yanar konstruksiyaları və ev əşyaları yanıb. SİA FHN-ə istinadən xəbər verir ki, yanğın yerinin kəşfiyyatı zamanı 1988-ci il təvəllüdlü Nağıyeva Şəbnəm Əfsər qızı, 2009-cu il təvəllüdlü Nağıyev Xəyal Elmin oğlu və 2010-cu il təvəllüdlü Nağıyev Ceyhun Elmin oğlunun yanmış meyitləri aşkar olunub. Yaxınlıqdakı tikililər yanğından mühafizə olunub. Yanğın yanğından mühafizə bölmələri tərəfindən söndürülüb. Hadisə ilə əlaqədar müvafiq qurumlar tərəfindən təhqiqat aparılır.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600